QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 037 (6237) 26 fevral 2021-ci il **Qiyməti 40 qəpik**

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Azərbaycanlı şairdən Rəcəb Tayyib Ərdoğana möhtəşəm ad günü hədiyyəsi



Azərbaycan və Türkiyə eyni tarixi, eyni dili və mədəniyyəti bölüşən bir millətin iki dövlətidir. Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə qardaş ölkənin getdikcə güclənməsi, dünyada söz sahiblərindən biri olması bizi də sevindirir, gücümüzə güc qatır. Qarabağ münaqişəsi başlandığı gündən Türkiyə həmişə yanımızda olub. Xüsusən 44 günlük...

Bax 7

## Dmitri Savelyev: Dağlıq Qarabağ Azərbaycana rəvan şəkildə inteqrasiya olunmalıdır



Bax 6

Tarixdə elə hadisələr var ki, onlar insanların yaddaşında sağalmaz yara kimi əbədi qalır. Xocalı şəhərinin faciəsi də belə sarsıdıcı hadisələrdəndir. Bu şəhərin sakinləri Dağlıq Qarabağda törədilmiş amansızlığın qurbanları olub. Rusiya Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan parlamentlərarası dostluq...

# İlham Əliyev: Əgər kimsə revanşist fikirlərlə yaşayırsa, bax, bu yumruğu görəcək!



*Prezident İlham Əliyev Ramana qəsəbəsində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimində iştirak edib*

Bax 2

## DİQQƏT! Bu şəhərdən Bakıya uçuşlar başlayır

"Ural Hava Yolları" Yekaterinburq-Bakı-Yekaterinburq marşrutu üzrə çarter reysləri həyata keçirəcək. Bu barədə daşıyıcının Mətbuat xidməti məlumat yayıb. Məlumata görə, uçuşlar martın 11-dən başlayacaq və hər həftənin cümə axşamı həyata keçiriləcək. Şirkətdən qeyd olunub ki, koronavirus pandemiyası ilə bağlı mövcud məhdudiyyətlər səbəbindən hazırda Azərbaycana...



Bax 10

## Bəhruz Quliyev: Mediada yeni düşüncə, yeni layihə və yeni baxış prizmasına ehtiyac var



Son zamanlar media sahəsində bir sıra yeni və münbit islahatlar mexanizminə keçidin reallaşdırılması tələbi özünü daha çox göstərməyə başlayıb. Xüsusilə, jurnalistika fəaliyyəti və bu fəaliyyət çərçivəsində şəffaflığın, azad rəqabət meyarlarının köklü şəkildə bərpasına...

Bax 7

## Əsrin faciəsi: Xocalı soyqırımından 29 il ötür




Ermənistanın Azərbaycana qarşı işğalçılıq və soyqırımı siyasətinin tərkib hissəsi olan, beynəlxalq hüququn norma və prinsiplərinin, insan hüquq və azadlıqlarının kütləvi şəkildə və kobudcasına pozulması ilə nəticələnən Xocalı soyqırımından artıq 29 il ötür. Bu soyqırımı erməni...

Bax 8-9

## Paşinyanı ələ salan general işdən çıxarıldı



Bax 13

## FOTOFAKT: RİA Novosti-dən Azərbaycana qarşı təxribat!


РИА Новости

Президент Карабаха находится в Ереване, готов выполнить посредническую миссию в преодолении кризиса в Армении

Bax 14

## "FourFourTwo": Sorğuda Ronaldo Peleni üstələyib



Bax 16

# İlham Əliyev: Əgər kimsə revanşist fikirlərlə yaşayırsa, bax, bu yumruğu görəcək!

*Prezident İlham Əliyev Ramana qəsəbəsində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimində iştirak edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimində iştirak edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı kompleksdə yaradılan şəraitlə tanış oldu.***



Məlumat verildi ki, bu kompleksdə doqquzmərtəbəli 30 bina tikilib. Ümumilikdə 1512 mənzildən ibarət kompleks bütün zəruri sosial infrastrukturla təchiz edilib. Ərazidə məktəb, uşaq bağçası, klub-icma mərkəzi inşa olunub. Dövlətimizin başçısının bu ilin yanvarında imzaladığı Sərəncamla təsdiq olunmuş proqramlara əsasən, 2021-2025-ci illərdə ev şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan 11 mindən çox şəhid ailəsi və müharibə əlili mənzil, fərdi evlə təmin ediləcək. Komplekslə tanışlıqdan sonra Prezident İlham Əliyev şəhid ailələrinin üzvləri və müharibə əlilləri ilə görüşdü. Dövlətimizin başçısı görüşdə çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

- Bu gün Bakının Ramana qəsəbəsində şəhid ailələri və müharibə əlilləri üçün yeni yaşayış kompleksi istifadəyə verilir. Bu münasibətlə sizi təbrik edirəm. Burada otuz bina inşa edilibdir. Binaların hamısı müasir səviyyədə, yüksək keyfiyyətlə tikilib, mənzillər də çox genişdir, işıqlıdır. Uşaq bağçası, 1200 şagird yerlik məktəb inşa edilib. Yəni, yaşayış üçün bütün imkanlar var və bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Müharibədən cəmi üç ay yarım keçib, ancaq şəhid ailələri və müharibə əlilləri üçün artıq belə gözəl yaşayış kompleksi, şəhərcik inşa olunub, təqdim edilib.

> *"Mən sizə öz hörmətimi bildirmək istəyirəm. Bildirmək istəyirəm ki, Azərbaycan dövləti və mən Prezident kimi hər zaman sizin yanınızda olacağam"*





Bu gün, eyni zamanda, Şağan qəsəbəsində reabilitasiya mərkəzinin əsaslı təmirdən sonra açılışı da olub. Orada da minlərlə qazi hər il müalicə alacaq, reabilitasiyadan keçəcək, öz sağlamlığını bərpa edəcək. Eyni zamanda, müharibə dövründə əlini, qolunu itirmiş qazilərimiz üçün də ən müasir protezlər sifariş edilibdir. Mənə bu gün verilən məlumata görə, 300-dən çox qazimiz bu protezlərlə təmin ediləcək. Bizim ayaqlarını itirmiş qazilərimizin artıq bir neçəsi bu protezlərlə təmin edilib və onlar normal həyata dönə biliblər. Bu protezlər dünyanın aparıcı şirkətlərinin məhsuludur, ən müasir protezlərdir. Bu protezlər imkan verəcək ki, bizim qazilərimiz normal həyata qayıda bilsinlər.

Dövlət şəhid ailələri, müharibə əlilləri üçün əlindən gələni edir. Mənim bu sahədəki siyasətim birmənalıdır. Son 17 il ərzində şəhid ailələri ilə müxtəlif tədbirlərdə dəfələrlə görüşmüşəm. Bu günə qədər 9200-ə yaxın şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilib. Təkcə keçən il 1572 mənzil verilibdir. Bu il isə 3 minə yaxın mənzil veriləcək. Beləliklə, həm Birinci, həm İkinci Qarabağ müharibəsində şəhid olmuş övladlarımızın Bakıda, Sumqayıtda, Abşeron rayonunda yaşayan ailələrinə bu ilin sonuna qədər mənzillər veriləcək. Yəni, bu proqramı biz Bakı, Sumqayıt və Abşeron rayonunda bu ilin sonuna qədər tam icra edəcəyik. Digər şəhər və rayonlarımızda yaşayan şəhid ailələri üçün binaların, fərdi evlərin tikintisi davam etdirilir. Əminəm ki, yaxın gələcəkdə bu proqram tam icra olunacaqdır. Onu da bildirməliyəm ki, müharibə əlillərinə 7200-ə yaxın minik avtomaşını verilib.

Mən bu rəqəmləri sadalamaqla dövlətin bu kateqoriyadan olan insanlara qayğısını bir daha dilə gətirmək istəyirəm. Bildirmək istəyirəm ki, Azərbaycan bu sahədə də dünya miqyasında ən qabaqcıl yerlərdədir. Dünyada müharibələr çox olub, itkilər çox olub. O qədər də uzaq olmayan tarixə nəzər salsaq, görərik ki, müxtəlif ölkələrdə müharibələrdə həlak olmuş insanların yaxınlarına heç vaxt bizdəki qədər qayğı, diqqət göstərilməyib. Onu da bildirməliyəm ki, Ermənistan ordusunda da itkilər olub və İkinci Qarabağ müharibəsində müxtəlif rəqəmlər səslənir. Bizdə olan məlumata görə, təqribən 6-7 min işğalçı məhv edilibdir. Onların birinin də ailəsinə Ermənistan dövləti heç bir yardım etməyib. Ümumiyyətlə, Ermənistanda bizdə olan proqram mövcud deyil. Müharibədə həlak olmuş insanların yaxınlarına nəinki ev, bir daxma da verilmir. Hər şey müqayisədə ölçülür. Bizim bu sahədəki siyasətimiz birmənalıdır. Bu siyasət mənəvi normalara əsaslanır və Vətən uğrunda canından keçmiş insanların yaxınları dövlət tərəfindən bundan sonra da qayğı ilə, diqqətlə əhatə olunacaqlar. Son illər müavinətlərin, pensiyaların məbləğinin artırılması göz qabağındadır. Azərbaycan dövləti bu siyasəti bundan sonra da davam etdirəcək.

İkinci Qarabağ müharibəsində 3 minə yaxın şəhidimiz olub. Mən, o cümlədən bunların arasında mülki vətəndaşları da nəzərdə tuturam. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Allah sizə, onların yaxınlarına səbir versin. Şəhidlərimizin ruhu qarşısında baş əyirik. Bildirməliyəm ki, şəhidlərimizin qanı yerdə qalmayıb. Biz Birinci Qarabağ müharibəsinin şəhidlərinin, İkinci Qarabağ müharibəsinin şəhidlərinin qanını aldıq. Düşməndən intiqamımızı aldıq, ərazi bütövlüyümüzü bərpa etdik və şəhidlərimizin əziz xatirəsini qəlbimizdə əbədi yaşadacağıq.

Birinci Qarabağ müharibəsində 12 mindən çox şəhidimiz olmuşdur və 4 minə yaxın hərbçimiz itkin düşmüşdür, təqribən 16 min itkimiz olmuşdur və torpaqlarımız işğal altına düşmüşdür. İkinci Qarabağ müharibəsində şəhidlərimizin sayı müharibənin miqyasına görə həddindən artıq azdır. Əlbəttə, hər bir şəhidimizin xatirəsi bizim üçün əzizdir. Hər bir insanın həyatı qiymətsizdir. Ancaq nəzərə alsaq ki, genişmiqyaslı müharibə aparılıb və ilk günlərdən əks-hücum əməliyyatı, əslində, hücum əməliyyatına çevrilmişdir. Ermənilərin otuz il ərzində qurduqları istehkamları, 5-6 xətt müdafiə istehkamlarını və o bölgənin relyefini nəzərə alsaq, tam qətiyyətlə deyə bilərik ki, biz istədiyimizə az itkilərlə nail olduq. Hətta dünyanın aparıcı ölkələrinin hərbi ekspertləri təəccüb edirlər ki, biz torpaqlarımızı işğalçılardan belə az itkilərlə azad etdik.

**Ardı Səh. 3**

# İlham Əliyev: Əgər kimsə revanşist fikirlərlə yaşayırsa, bax, bu yumruğu görəcək!

*Prezident İlham Əliyev Ramana qəsəbəsində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimində iştirak edib*





*"Ermənistan ordusu bitdi, yoxdur və olmamalıdır. Belə bir faşist dövlətdə ordu olmamalıdır. Biz heç vaxt imkan verməyəcəyik ki, bizim üçün hər hansı bir təhlükə yenidən yaransın, yaxud da ki, azad edilmiş torpaqlara qayıdacaq vətəndaşlarımız hər hansı bir risk hiss etsinlər"*

Əvvəli Səh. 2

Nəyə görə? Çünki bütün əməliyyatlar planlaşdırılanda ən vacib amillərdən biri itkilərin az olması idi. Hər gün əməliyyat planını təsdiq edərkən o amil ön planda idi.

Müharibə itkisiz olmur. Bizim müharibəmiz azadlıq müharibəsi idi, ədalətli müharibə idi. Ermənistan işğalçılıq müharibəsi aparırdı. Haqq-ədalət bizim tərəfimizdədir. Ona görə bizim hərbçilərimiz şəhidlik zirvəsinə ucalaraq Vətən qarşısında öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirmişlər. Minlərlə hərbçimiz yüksək dövlət orden və medalları ilə təltif edilmişdir. Onların qəhrəmanlığı, şücaəti, fədakarlığı hər bir azərbaycanlı üçün örnək olmalıdır, gənc nəsil üçün örnək olmalıdır və olacaq.

Biz ədaləti bərpa etdik, otuz il ərzində işğal altında olan torpaqları qaytardıq və dövlətimizin, xalqımızın gücünü göstərdik. Müharibənin ilk günündən üstünlük bizim tərəfimizdə idi. Düşmən demək olar ki, panikaya, isterikaya qapılmışdı. Ermənistan ordusunda onların özlərinin etirafına görə 10 mindən çox fərari olmuşdur. İndi Ermənistan dövləti bilmir ki, bu fərariləri necə mühakimə etsin. Çünki bu da böyük problemlərə gətirib çıxara bilər. Azərbaycan Ordusunda bir nəfər də fərari olmamışdır. Halbuki Birinci Qarabağ müharibəsində fərarilər olub.

Birinci Qarabağ müharibəsində bizim qəhrəman övladlarımız şücaət göstərmişdilər. Ancaq o vaxt Azərbaycanın başında olan insanlar lazımi tədbirlər görə bilməmişdilər. Xüsusilə AXC-Müsavat cütlüyünün dövründə Şuşanın, Laçının, Kəlbəcərin düşmənə verilməsi böyük xəyanət idi və faktiki olaraq müharibənin sonrakı gedişatını şərtləndirdi. Çünki Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaradılmışdır və ondan sonra digər torpaqların işğalı üçün ermənilərin çox böyük üstünlüyü yaranmışdır.

O vaxt faktiki olaraq bizim bölgələrimizin müdafiəsi demək olar ki, özünümüdafiə qüvvələrinin öhdəsinə buraxılmışdı. Nizami ordu yox idi. Hətta insanları Kəlbəcərdən, Laçından çıxarmaq üçün lazımi tədbirlər görülməmişdi, ona görə də, əhali arasında böyük itkilər olmuşdu. Sabah Xocalı soyqırımının 29-cu ildönümüdür. Xocalı soyqırımı insanlığa qarşı törədilmiş cinayətdir. Bu cinayəti Ermənistan dövləti törədib. Xocalı qurbanlarının da qanı İkinci Qarabağ müharibəsində alındı.



Əlbəttə ki, biz bütün bu illər ərzində müharibəyə hazırlaşırdıq. Bunu heç gizlətmirdik. Çünki bizim torpaqlarımız işğal altında idi və biz görürdük ki, bu məsələnin sülh yolu ilə həlli mümkün deyil. Artıq son illər ərzində buna tam əmin idik. Ermənistan rəhbərliyinin davranışı, təxribat xarakterli çıxışları, addımları bizi və deyə bilərəm ki, beynəlxalq ictimaiyyəti əmin etmişdir ki, bu münaqişənin sülh yolu ilə həlli mümkün deyil. Halbuki bu məsələ ilə məşğul olan Minsk qrupuna həmsədrlik edən ölkələrin yüksəkvəzifəli rəsmi nümayəndələri daim təkrarlayırdılar ki, münaqişənin hərbi həlli yoxdur. Amma biz görürdük ki, münaqişənin sülh yolu ilə həlli yoxdur. Çünki əks-təqdirdə 30 il ərzində bu məsələ həll olunardı. Deməli, buna maraq yoxdur, yaxud da ki, belə nə hərb, nə sülh vəziyyəti kimisə qane edirdi. Kimisə qane edirdi ki, Azərbaycan xalqı 30 il ərzində belə vəziyyətdə yaşasın. Kimisə qane edirdi ki, bizim torpaqlarımız işğal altındadır və sanki Azərbaycana bu, müəyyən təzyiq mexanizmi kimi qəbul edilirdi. Bizi inandırmağa çalışırdılar ki, indi reallıq yaranıb, 30 il ərzində bu reallıq mövcuddur və Azərbaycan bu reallıqla barışmalıdır. Mən isə deyirdim ki, heç vaxt biz bu vəziyyətlə barışmayacağıq. Mən deyirdim, heç vaxt imkan verməyəcəyik ki, bizim torpağımızda ikinci qondarma erməni dövləti yaradılsın və imkan vermədik. Bütün gücümüzü səfərbər etdik, bir çox illər ərzində ardıcıl siyasət apardıq, həm beynəlxalq müstəvidə, həm iqtisadi sahədə, həm qonşu ölkələrlə münasibətlərdə, regional layihələrin icrasında və əlbəttə ki, ordu quruculuğunun təkmilləşdirilməsi üçün böyük işlər gördük. Eyni zamanda, gənc, vətənpərvər, Vətəni hər şeydən çox sevən nəsil yetişdi. Bax, bu nəsil torpaqlarımızı azad etdi. Şuşada Cıdır düzündə Azərbaycan xalqına müraciət edərkən demişdim ki, mən 2003-cü ildə hakimiyyətə gələndə bu gün 25-30 yaşında olan insanlar uşaq idi. Biz onları vətənpərvərlik ruhunda, dövlətə sədaqət ruhunda yetişdirdik və onlar bizim torpaqlarımızı işğalçılardan azad etdilər. O cümlədən işğal edilmiş torpaqlarda heç vaxt olmayan, amma əslən o torpaqlardan olan gənclər torpaqları uğrunda aslan kimi vuruşurdular. Bütün Azərbaycan xalqı, Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri bir yumruq kimi birləşərək düşməni məğlub edib və torpaqlarımızı işğaldan azad ediblər. Bu, tarixi hadisədir. Azərbaycan tarixində buna oxşar parlaq qələbə olmamışdır. Azərbaycan bütün dünyaya öz gücünü göstərdi, xalqımızın iradəsini göstərdi. Bir daha bütün dünya gördü ki, əgər iradə varsa, güc varsa, xalq-iqtidar birliyi, əzmkarlıq və cəsarət varsa, haqq-ədalət öz yerini tapır. Biz bunu nümayiş etdirdik.

İndi baxın, Ermənistan nə gündədir. Orada böhran yaşanır, gündə toqquşmalar, həbslər baş verir, demokratik əsaslar demək olar ki, tamamilə pozulub. Ermənistan heç vaxt bu cür acınacaqlı vəziyyətdə olmamışdır. Onları bu vəziyyətə salan onların rəhbərləridir. Həm 20 il Ermənistana başçılıq edən xunta rəhbərləri - Köçəryan-Sarkisyan xuntası, həm ondan sonra gələn hakimiyyət. Sonra gələn hakimiyyətin qarşısında seçim var idi - ya işğalçılıq siyasətini davam etdirəcək və özünü bədbəxt edəcək, ya da ki, öz xoşu ilə bizim torpağımızdan çıxacaq. Bu şansı biz verdik və mən hətta müharibə dövründə dəfələrlə demişdim ki, bizə tarix versinlər, onlar hansı tarixdə hansı bölgələrdən çıxırlar və biz müharibəni dayandırırıq. Belə də oldu, tarix verilən kimi müharibə dayandı. Ancaq onlar məcbur olub bu tarixi bizə verdilər, öz xoşuna yox. Biz artıq onların ordusunu, Ermənistan ordusunun canlı qüvvəsini məhv edəndən, onlar diz çökəndən sonra buna məcbur oldular və kapitulyasiya aktına imza atdılar və bizim qələbəmiz təsdiq olundu.

Onsuz da biz bütün torpaqları azad edəcəkdik. Ancaq itkilər çox ola bilərdi, xüsusilə Kəlbəcər, Laçın istiqamətində. Artıq qış gəlmişdi, qar yağmağa başlamışdı, orada bizim itkilərimiz çox ola bilərdi. Ona görə düşməni hərbi yolla məğlub etdik, torpağımızdan qovduq, Şuşa şəhərini və digər şəhərləri işğalçılardan azad etdik. Ondan sonra Laçın, Kəlbəcər rayonlarını və Ağdam rayonunun bir hissəsini siyasi yollarla qaytardıq və artıq bizim nəzarətimizdədir.

Müharibədən sonrakı dövrə gəldikdə indi hər kəs görür ki, Azərbaycanda inkişaf gedir, quruculuq işləri başlayıb, Ermənistanda isə böhran hökm sürür, bir-birilərini ittiham edirlər, bir-birilərini didirlər. Hər zaman xarici nümayəndələr bizə deyirdilər ki, Ermənistan cəmiyyəti birlik nümayiş etdirir və Ermənistan cəmiyyətində milli birlik var. İndi biz görürük haradadır bu milli birlik.

Ardı Səh. 4

# İlham Əliyev: Əgər kimsə revanşist fikirlərlə yaşayırsa, bax, bu yumruğu görəcək!

*Prezident İlham Əliyev Ramana qəsəbəsində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimində iştirak edib*

Əvvəli Səh. 3

Bu məğlubiyyətdə bir-birilərini ittiham edirlər, bir-birilərini günahlandırırlar, kütləvi həbslər baş verir. Amma nədənsə demokratiyadan dəm vuran bəzi qeyri-hökumət təşkilatları və bəzi hökumətlər buna göz yumurlar. Necə olur Ermənistanda müxalifət gündəlik formatda əzilir, dağıdılır, həbs edilir, öldürülür, amma buna heç kim reaksiya vermir. Bu, nəyi göstərir? Necə deyərlər, həmin 30 illik tarix bir daha əks etdirir ki, biz bu qələbəni təkcə Ermənistan üzərində qazanmamışıq. Bizə qarşı mütəşəkkil və güclü dairələr birləşib bizim torpağımızı əbədi işğal altında saxlamaq istəyirdilər. Ermənistan, sadəcə olaraq, bir alət idi, bir vasitə idi. Biz bunu dağıtdıq. Biz bu məkrli siyasəti alt-üst etdik və haqq-ədaləti bərpa etdik.

Ermənistan rəhbərliyi indi gileylənir ki, onlara verilən silahlar yararsız idi. Bilirsiniz, kimisə günahlandırmaq hər şeydən asandır. Ancaq onu da deməlidirlər ki, bu silahlar onlara pulsuz verilmişdir, müftə verilmişdir. Özü də bir il yox, iki il yox, 30 il ərzində onları bizə qarşı silahlandırırdılar. Biz indi bütün imkanlardan istifadə edib bölgədə gedən prosesləri diqqətlə izləyirik, bizim imkanlarımız var, informasiya mənbələrimiz kifayət qədər çoxdur. Biz bilirik müharibə dövründə Ermənistana nə qədər pulsuz silah verildi, müharibədən əvvəl nə qədər verildi. İyul toqquşmasından dərhal sonra, iyulun 17-dən başlayaraq müharibənin son gününə qədər Ermənistana gündə bir neçə təyyarə pulsuz silah gətirirdi. Həmin o “İskəndər” raketlərini Ermənistan pulla alıb? Pulsuz alıb. “Elbrus”, “Toçka-U”, “Skad” raketlərini pulla alıb? Pulsuz alıb. “S-300”, hansı ki, biz yeddisini məhv etmişik, onlar da pulsuz verilib, tanklar da, toplar da, digər hava hücumuna qarşı sistemlər də. Biz onların hamısını məhv etmişik. Ermənistan ordusu yoxdur, bitib, qurtarıb.

Amma bir neçə gün əvvəl eşitmişəm ki, indi onların müttəfiqləri Ermənistan ordusunu yenə də canlandırmaq istəyirlər, onları modernləşdirmək istəyirlər. Nəyə görə? Kimə qarşı? Müharibə başa çatıb. Əgər kimsə revanşist fikirlərlə yaşayırsa, bax, bu yumruğu görəcək, bu, yerindədir və bizim səbrimizi sınamasınlar. Ermənistan ordusu bitdi, yoxdur və olmamalıdır. Belə bir faşist dövlətdə ordu olmamalıdır. Biz heç vaxt imkan vermərik ki, bizim üçün hər hansı bir təhlükə yenidən yaransın, yaxud da ki, azad edilmiş torpaqlara qayıdacaq vətəndaşlarımız hər hansı bir risk hiss etsinlər.

Biz bütün işlərə nəzarət edirik. Biz ordumuzu bundan sonra da gücləndirəcəyik. Yeni kontraktlar imzalanıb, ən müasir silahlar alınır, artıq onlar gətirilir. Dünyada hansı müasir silah varsa, onlar da artıq kontraktlanıb və Azərbaycana gətiriləcək. Müharibə, eyni zamanda, ordunun gələcək təkmilləşdirilməsi məsələlərini də üzə çıxarıb. Aparılacaq islahatlar daha da çevik, daha da döyüşkən və döyüş qabiliyyəti yüksək olan ordunun yaranmasına gətirib çıxaracaqdır.

*“Xüsusilə AXC-Müsavat cütlüyünün dövründə Şuşanın, Laçının, Kəlbəcərin düşmənə verilməsi böyük xəyanət idi və faktiki olaraq müharibənin sonrakı gedişatını şərtləndirdi”*





Müharibədən sonra bu gün dünyada yeni reallıq yaranıb. Bu reallığı biz yaratmışıq, Azərbaycan xalqı yaradıb. Biz iradə göstərmişik, güc göstərmişik. Bəli, biz gözləmişik. Həyat göstərdi ki, ən düzgün an seçilmişdir. İyul ayında bizə qarşı sərhəddə təxribat törədiləndə də biz əks-hücuma keçə bilərdik. Ancaq o vaxt mən əks-hücum əməliyyatını dayandırmışdım. Biz erməniləri öz torpağımızdan qovub, düz sərhədə gəlib, sərhədin o tərəfinə keçmədik. Bizi buna təhrik etmək istəyirdilər. Bizi təxribata çəkmək istəyirdilər. Əgər biz o vaxt - iyul ayında Ermənistan ərazisinə keçsəydik, əgər mən o vaxt ordumuzu dayandırmasaydım, vəziyyət başqa cür ola bilərdi. Bizi, əslində, buna təhrik edirdilər, təxribata təhrik edirdilər. Ermənistandan atılan raketlər Gəncənin, Bərdə, Tərtər, Goranboy, Naftalan, Ağdam, Füzuli rayonlarımızın dağılmasına gətirib çıxarmışdır. Onların atdığı raketlərin biri Xızıya gəlib çatmışdır. Görün, Xızını döyüş bölgəsindən neçə kilometr məsafə ayırır. Ona görə, bu təxribat planları var idi və düzgün an, düzgün məqam seçildi və düzgün addımlar atıldı. Ermənistan ordusunu 44 günə məhv etdik, onların əsrlərboyu yaratdıqları mifləri darmadağın etdik. Göstərdik ki, müzəffər xalq Azərbaycan xalqıdır. Göstərdik ki, döyüşkən xalq Azərbaycan xalqıdır. Onlar bizim qabağımızda diz çökdülər. Onlar heç vaxt belə rəzil vəziyyətdə olmamışdılar. Kimsə onları cəzalandırmalı idi, yoxsa yox? Bütün dünyaya meydan oxuyurlar. Bütün dünyaya əsassız tələblər irəli sürürlər. Sanki hər kəs bunlara kömək etməlidir, bunları müftə yedizdirməlidir, içizdirməlidir, silahla təmin etməlidir. Bir zəli kimi yapışıblar dünya ölkələrinin vücuduna. Bizim torpağımızı işğal edib, insanları evsiz-eşiksiz qoyub, tarixi abidələrimizi, məscidlərimizi dağıdıb. Ondan sonra da deyib ki, bu, erməni torpağıdır. Kimsə bunları cəzalandırmalı idi, yoxsa yox? Kimsə onları çökdürməli idi, yoxsa yox? Biz bunu etdik. Tarixi qələbədir, tarixi nailiyyətdir. Bir daha demək istəyirəm ki, bu qələbəni biz şəhidlərimizin qanı hesabına qazanmışıq. Şəhidlər bizim qəlbimizdə əbədi yaşayır, yaşayacaq. Allah sizə səbir versin. Siz analar, atalar xalqımız üçün, dövlətimiz üçün gözəl insanlar yetişdirmisiniz. O insanların ömrü uzun olmadı, amma onlar əbədiyyətə qovuşdu və onlar öz adlarını Azərbaycan xalqının şanlı tarixinə əbədi yazdırdı.



Mən sizə öz hörmətimi bildirmək istəyirəm. Bildirmək istəyirəm ki, Azərbaycan dövləti və mən Prezident kimi hər zaman sizin yanınızda olacağam.

XXX

Şəhid Milli Qəhrəman İlqar İsmayılovun anası Fatma Qocayeva:

- Hörmətli cənab Prezidentimiz, mən Birinci Qarabağ müharibəsinin şəhid Milli Qəhrəmanı İlqar İsmayılovun 90 yaşlı anasıyam. Mən bütün şəhidləri öz övladım hesab edirəm. Ona görə də bütün şəhidlərin valideynləri adından, öz adımdan Sizə minnətdarlıq bildirmək istəyirəm ki, Siz Qarabağın azadlıq sevincini bizə yaşatdınız. Otuz il gözləsək də, o həsrətdən bizi qurtardınız. Bu, böyük fəxrdir. Şəhid ailələri də, şəhid valideynləri də bunun üçün Sizə minnətdardır. Şəhidlərin də ruhu şad oldu, torpaqda rahat uyudular. Onu da qeyd edim ki, Siz Şuşanın azad olunmasını elan edərkən, “Şuşa sən azadsan!” deyərkən elə bir azərbaycanlı tanımıram ki, onun gözündə sevinc yaşı olmasın. Bu, bizim fəxrimiz oldu.

Qeyd etmək istəyirəm ki, Qubadlının iki polisi - İlqar İsmayılov, Əli Məmmədov bir çox kəndləri azad edə-edə Laçın dağlarının ən yüksək zirvəsi olan Qızartı yüksəkliyinə çıxıb Laçın dəhlizini bağlamaq tapşırığı almışdılar. O yüksəkliyə çıxanda onlar məşhur idmançı polislər idi. Çox ağır döyüşlə rastlaşıblar. Ermənilər əvvəlcədən oranı zəbt ediblərmiş. Onlar mühasirəyə düşüblər. Erməni başbilənləri onlara güllə atmayıb. “Onlar bizə diri lazımdır” deyəndə komandir olan İlqar deyib ki, uşaqlar soyuqqanlı olun. Bir atəşlə hamımız onları yerə sərməliyik. Sağ qalanların dediyinə görə, qumbara atmaqla, tüfənglə, avtomatla, bir çox silah-sursatla 48 erməninin meyitləri yerə sərilib. Axırda İlqar deyib ki, biz bunlara təslim olmamalıyıq. Bıçaqları çıxarın əlbəyaxa döyüşə keçək. Orada əlbəyaxa döyüş gedib, bu cəsur oğullar şəhid olublar. İndi Şuşa, Laçın azad olunandan sonra o dağlara baxıb deyirəm, orada bitən qırmızı lalələr, sizə qurban olum. Sizin rənginiz ona görə qırmızıdır ki, o igidlərin qanından su içmisiniz. İndi Prezidentimizin sayəsində, şəhidlərin qanı bahasına torpaqlarımız azaddır, Şuşa da, Laçın da bizimdir. Bizim şəhidlərin ruhu bir də ona görə şaddır ki, cənab Prezident, Siz şəhid ailələrinə böyük qayğı ilə yanaşırsınız, onların hər bir ehtiyacını çox həvəslə ödəyirsiniz. Bu gün bizi buraya dəvət edib ehtiyacı olan şəhid ailələrinə ev bağışlamaqla yenidən öz qayğınızı göstərirsiniz. Xalqımız bunu duyur, hiss edir ki, biz Prezidentimizin himayəsindəyik.

Mən həmişə demişəm, heç kəs qorxmasın ki, gedib şəhid olaram, ailəm baxımsız qalar. Bizim Prezidentimiz hər bir şəhid ailəsinin qayğısına qalır. Sizə bütün şəhid ailələri adından, öz adımdan təşəkkür və minnətdarlıq edirəm ki, Siz bizi bu cür qayğı ilə əhatə edirsiniz. Allah Sizi qorusun, dövlətimizi, xalqımızı qorusun. Bütün şəhidlərimizə rəhmət, qazilərimizə cansağlığı diləyirəm. Sizinlə fəxr edirik. Allah Sizi həmişə qorusun. Sağ olun.

XXX

İkinci qrup Qarabağ müharibəsi əlili Rahim Babayev:

- Cənab Prezident, müzəffər xalqın Müzəffər Ali Baş Komandanı, Sizə Qarabağ qaziləri adından, şəhid ailələri adından böyük təşəkkürümüzü, minnətdarlığımızı bildiririk. Ona görə ki, Siz nəinki bizim Azərbaycan xalqına, bütün türk dünyasına bir hədiyyə etdiniz - Qarabağ hədiyyəsi!

Vaxt uzandıqca son zamanlar insanlarda ümidsizlik yaranmışdı. Amma Siz bütün bu ümidsizliyə son qoydunuz. Dünyanın bir çox ölkələrində müharibələr olur, amma 44 günlük müharibə olmur. 44 gün ərzində belə bir nəticə heç bir yerdə, heç bir ölkədə olmayıb, amma bunu Siz etdiniz. Təkcə Azərbaycan xalqı deyil, bütün türk dünyası Sizinlə fəxr edir. Siz bütün dünyaya türkün gücünü və Sizin dediyiniz o “dəmir yumruğu” göstərdiniz və sübut etdiniz. Biz qazi olaraq, əsgər olaraq yenə də Sizin bütün əmr və sərəncamlarınızı yerinə yetirməyə hazırıq.

Hörmətli Prezident, biz qazi olaraq həyatda hər zaman Sizin qayğınızı hiss edirik. Bizim təqaüdlərimiz, pensiyalarımız məhz Sizin sərəncamlarınız əsasında mütəmadi surətdə ilbeil, aybaay artırılır. Məhz bu ilin əvvəlində də sərəncamınızla Qarabağ müharibəsi əlillərinin, şəhid ailələrinin pensiya və təqaüdləri artırıldı.

Bir neçə il bundan əvvəl biz Qarabağ qazilərinə avtomobil hədiyyə etmisiniz. Mənə də o avtomobildən hədiyyə olunub. Hazırda o avtomobili idarə edirəm. Bu gün isə məni evlə təmin edirsiniz.

Cənab Prezident, Siz nəinki bu xalqa, bütün türk dünyasına lazım olan insansınız. Allah Sizi qorusun. Var olun, sağ olun. Vətən sağ olsun!

Prezident İlham Əliyev: Çox sağ olun.

XXX

Sonda xatirə şəkli çəkdirildi.

# Prezident İlham Əliyev Şağan Reabilitasiya Pansionatının açılışında iştirak edib















**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Bakının Xəzər rayonunda Şağan Reabilitasiya Pansionatının əsaslı təmirdən sonra açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı pansionatda yaradılan şəraitlə tanış oldu.**

Məlumat verildi ki, bu pansionat ümummilli lider Heydər Əliyevin tapşırığı ilə 2003-cü ildə istifadəyə verilib. Ötən il isə burada əsaslı təmir işləri görülüb. Yenidən qurulan 250 çarpayılıq pansionat ildə 5 min nəfərədək xəstə qəbul edə bilər. Bu tibb müəssisəsində ürək, qan-damar, oynaq-hərəkət, əsəb sistemi, endokrin xəstəliklərdən əziyyət çəkənlərə xidmət göstəriləcək. Əsas xidmətlər isə funksional diaqnostika, fizioterapiya müalicəsi, tibbi vannalar, müalicəvi bədən tərbiyəsi, sosial-psixoloji reabilitasiyadır. Burada müalicə alanların reabilitasiyasında müasir metodika ən qabaqcıl texnologiyanın tətbiqi ilə paralel təşkil olunacaq.

Pansionatda Abşeronun iqliminə xas olan klimoterapiya bu müalicə ocağının əsas özəlliklərindən biridir. Burada mövsümə uyğun iqlimlə müalicə imkanları ilə yanaşı, fizioterapiyanın da demək olar bütün sahələri əhatə edilib.

Bildirilib ki, post-müharibə dövründə bu tip müalicə mərkəzlərinin əhəmiyyəti xüsusi nəzərə çarpır. Müalicə xidməti ilə bərabər, əlilliyi olan şəxslərin sosial statusunun bərpası, cəmiyyətə inteqrasiyası əsas məsələlərdəndir.

Bu il istifadəyə verilməsi gözlənilən Şamaxı Psixonevroloji Sosial Xidmət Müəssisəsi, Qəbələ və Şəmkir Uşaq Reabilitasiya mərkəzləri də daxil olmaqla, ümumilikdə reabilitasiya xidmətləri göstərilən şəxslərin sayı 30 min nəfərə çatacaq, 2018-ci ildə isə bu potensial cəmi 10 min nəfərə bərabər idi.

Müharibədən sonrakı dövrdə 210 qaziyə 1220 reabilitasiya vasitəsi verilib, 15 hərbçi yüksək texnologiyalı protezlə təmin edilib. Vətən müharibəsində yaralanmış şəxslərin 90 faizi ilə artıq evlərində görüş keçirilib. Amputasiyası olan 301 nəfərdən 109-nun protez ehtiyacları müəyyən edilib. 2021-ci ildə onların protezlə təmin olunması planlaşdırılır.

# "Azərbaycan şəhərlərinin müasirləşdirilməsi prosesi davam edir"

*Prezident İlham Əliyev "Signify" şirkətinin baş icraçı direktorunu və şirkətin rəhbərliyinin digər nümayəndələrini videoformatda qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də "Signify" (əvvəlki adı "Philips Lighting") şirkətinin baş icraçı direktoru Erik Rondolatı və şirkətin rəhbərliyinin digər nümayəndələrini videoformatda qəbul edib. AZƏRTAC xəbər verir ki, şirkətin nümayəndələrini salamlayan Prezident İlham Əliyev dedi:**

-Hər vaxtınız xeyir.

Erik Rondolat: Hər vaxtınız xeyir.

Prezident İlham Əliyev: Sizi yenidən görməyə çox şadam. Mən bizim sonuncu görüşlərimizi - ötən ilin yanvar ayında Davosdakı görüşü və həmçinin ötən il videokonfrans vasitəsilə təşkil olunmuş görüşü xatırlayıram. Çox şadam ki, sizin şirkətlə Azərbaycandakı tərəfdaşlarınız arasında əməkdaşlıq çox uğurla davam edir. Davosda razılaşdırdığımız kimi, siz ölkəmizdə çox mühüm layihələri həyata keçirirsiniz. Biz bütün müzakirə etdiklərimiz və razılığa gəldiyimiz məsələləri icra edirik. Mənə bu yaxınlarda məlumat verilmişdir ki, Bakıda, Sumqayıtda və Şamaxıda küçələrin işıqlandırılması layihəsi uğurla davam edir, yaxşı nəticələr əldə olunur, elektrik enerjisinin qənaəti yaxşı səviyyədədir. Bu, çox mühümdür. Çünki bizim ötən dəfə müzakirə etdiyimiz kimi, Azərbaycan şəhərlərinin müasirləşdirilməsi prosesi davam edir. Ona görə də xatırladığınız kimi, Bakıda biz əsas diqqəti küçə işıqları olmayan küçələrə yönəltməyi qərara aldıq. Sumqayıtda, eləcə də Şamaxıda siz layihəni tamamilə üzərinizə götürdünüz. Əminəm ki, belə şəhərlər daha çox olacaq. Çünki biz artıq yaxşı nəticələr görürük. Biz artıq səmərəliliyi görürük. Ötən dəfə müzakirə etdiyimiz kimi, biz bu texnologiyaları yalnız küçələrin işıqlandırılması sektorunda deyil, həm də digər sektorlarda tətbiq edə bilərik - xüsusilə azadlıq müharibəsindən sonra Azərbaycan hər şeyin dağıdıldığı azad edilmiş əraziləri artıq yenidən qurmağa başladığı dövrdə. Mən dəfələrlə dediyim kimi, biz həmin ərazilərdə



çox müasir infrastruktur, o cümlədən "ağıllı şəhərlər", "ağıllı kəndlər" sistemi yaratmağı planlaşdırırıq. Proses artıq başlayıb. Ona görə də bizim müvafiq strukturlarımızla beynəlxalq şirkətlər arasında əməkdaşlıq üçün böyük imkan olacaq. Bu səbəbdən mən əməkdaşlığı davam etdirməyi və birinci layihənin ümidvaram ki, çox yaxın zamanda təhvil verilməsini səbirsizliklə gözləyirəm. Bu, əməkdaşlığımızın çox yaxşı göstəricisi olacaq. Bir daha yalnız müzakirələr və yeni ideyaların inkişaf etdirilməsi baxımından deyil, həm də təmasların qurulması baxımından Davos görüşünün əhəmiyyətini vurğulayıram. Sizi yenidən görməyə çox şadam.

"Signify" şirkətinin baş icraçı direktoru Erik Rondolat: "Sizin Azərbaycanın lideri olaraq münaqişəyə son qoymağınızı görməkdən çox şadıq. Münaqişə heç kim üçün yaxşı deyil və münaqişənin həlli bacarığına malik olan liderlərin olması bizim üçün çox önəmlidir".

Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması münasibətilə təbriklərini çatdıran "Signify" şirkətinin baş icraçı direktoru vurğuladı ki, dövlətimizin başçısının Qarabağdakı əraziləri yenidən Azərbaycana qaytarmağı onları çox sevindirir. Çünki bu münaqişə uzun müddət idi ki, davam edirdi.

"Siz bir lider olaraq vəziyyətdən düzgün çıxış yolunu tapa bildiniz", - deyən Erik Rondolat vurğuladı ki, onlar işğaldan azad olunmuş ərazilərin təsvirlərini görüblər və oradakı dağıntıların miqyası onların qəlbində iz buraxıb. Erik Rondolat ölkəmizdə həyata keçirdikləri layihələrdən danışdı, Bakı, Sumqayıt və Şamaxıda icra olunan layihələrin aprelin sonunadək yekunlaşacağını qeyd etdi. O, ölkəmizdə yeni layihələrin icrasında maraqlı olduqlarını dedi.

Prezident İlham Əliyev: Təşəkkür edirəm. Təbriklərinizə görə çox sağ olun. Düşünürəm ki, bu, həqiqətən də təkcə Azərbaycan üçün deyil, həm də bütün region üçün tarixi nailiyyət oldu. Çünki indi regionun tam inteqrasiya olunmaq üçün böyük imkanı var.

Dövlətimizin başçısı münaqişənin həlli ilə regiondakı bütün ölkələr üçün yeni imkanların yaradıldığını dedi. İşğal dövründə həmin ərazilərimizin ermənilər tərəfindən tamamilə dağıdıldığını qeyd edən Prezident İlham Əliyev vurğuladı ki, biz artıq bu ərazilərdə elektrik enerjisinin hasilatı, avtomobil və dəmir yollarının tikintisi ilə bağlı layihələrə start vermişik.

Prezident İlham Əliyev "Signify" şirkətinin ölkəmizdə icra etdiyi layihələri də qeyd edərək dedi:

-Hesab edirəm ki, Bakı, Sumqayıt, Şamaxı layihələri sizin şirkətinizin yüksək fəaliyyətini, səmərəliliyini həqiqətən də nümayiş etdirir. Bizim yeni planlarımız var. Biz artıq digər böyük şəhərlərlə və əlbəttə ki, işğaldan azad olunmuş ərazilərlə bağlı bu planları müzakirə etmişik. Biz hər bir şəhərin yenidən qurulması üçün baş plan hazırlayırıq və küçələrin işıqlandırılması bunun mühüm bir hissəsi olacaqdır.

# Dmitri Savelyev: Dağlıq Qarabağ Azərbaycana rəvan şəkildə inteqrasiya olunmalıdır

Tarixdə elə hadisələr var ki, onlar insanların yaddaşında sağalmaz yara kimi əbədi qalır. Xocalı şəhərinin faciəsi də belə sarsıdıcı hadisələrdəndir. Bu şəhərin sakinləri Dağlıq Qarabağda törədilmiş amansızlığın qurbanları olub. Rusiya Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Dmitri Savelyevin AZƏRTAC-ın müxbiri ilə söhbəti bu barədədir. Deputat əmin olduğunu bildirib ki, Xocalı qırğınının xatırlanması dünya birliyinə millətçiliyin və ksenofobiyanın təhlükəli nəticələri barədə ciddi xəbərdarlıq olmalıdır.

***-Dmitri İvanoviç, Xocalı qırğınının törədilməsindən 29 il keçir, lakin hələ də dünyanın müxtəlif guşələrində həmin faciənin xatırlanması ilə bağlı tədbirlər keçirilir. Siz bu hadisənin belə güclü rezonans doğurmasını nə ilə izah edərdiniz?***

-Mənim fikrimcə, Xocalının dinc sakinlərinə divan tutulması ötən əsrin dəhşətli faciələri - Xatın, Gernika və ya Xirosima hadisələri ilə müqayisə edilə bilər. Rəmzi haldır ki, planetin müxtəlif guşələrində insanlar onlardan uzaqda yerləşən Azərbaycanın ağrı-acısına şərik olduqlarını bildirirlər. Bu insanların hər biri başa düşür ki, əgər yeni müharibələrə rəvac verməK cəhdlərinə qarşı mübarizə aparılmasa, əgər bütün dünyada silahlı münaqişələrin qarşısı alınmasa, belə müsibətlər onların da başına gələ bilər. Milli zəmində dözümsüzlük və nifrətin necə ağır nəticələrə gətirib çıxara biləcəyini anlamaq üçün Xocalı qırğını barədə xatirəni gələcək nəsillər üçün qoruyub saxlamaq lazımdır. Etnik təmizləmələr prosesində 30 mindən çox azərbaycanlı, o cümlədən 613 Xocalı sakini həlak olub, bir milyondan çox insan öz yurdundan qovulub.



Bütün bunlara baxmayaraq, Azərbaycan həmişə multikulturalizm tərəfdarı olub, millətçiliyin təhlükəli olmasını daim insanlara xatırladıb. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərlik etdiyi "Xocalıya ədalət!" beynəlxalq informasiya kampaniyasının əhəmiyyətini lazımınca qiymətləndirmək çətindir. Məhz bu informasiya kampaniyasının sayəsində dünyanın bir sıra ölkələri Xocalı hadisələrini soyqırımı kimi rəsmən tanıyıblar.

***-44 günlük Vətən müharibəsi dövründə Azərbaycan ordusu üç yüzdən çox yaşayış məntəqəsini işğaldan azad edib, Azərbaycanın əzəli torpaqları öz qanuni sahibinə qaytarılıb, Qarabağ münaqişəsinin günahsız qurbanlarının qanı yerdə qalmayıb. Siz Xocalı soyqırımının beynəlxalq aləmdə tanınmasına yönəlmiş səyləri necə qiymətləndirirsiniz?***

-Vaxtilə Azərbaycan Dillər Universitetinin müəllimi Yusif Savalandan eşitdiyim bir söhbət məni həqiqətən sarsıtmışdı. Onun atası Böyük Vətən müharibəsi illərində Kerç yaxınlığında almanlara əsir düşüb və cəza düşərgəsinə göndərilib. Lakin almanlar qarşılarındakı gəncin müharibəyə qədər heç vaxt əlində silah tutmamış adi kəndli olduğunu görəndə onu güllələməyiblər. Ən faciəlisi budur ki, o vaxtdan yarım əsr sonra Xocalı qırğını zamanı 83 yaşlı qoca öz evində vəhşicəsinə öldürülüb və qatillərdən heç biri ona rəhm etməyi ağlına belə gətirməyib.

Bu əhvalat sizin sualınıza ən yaxşı cavab olar. 2010-cu ildə Avropa İnsan Haqları Məhkəməsi Xocalıda mülki əhalinin qətlə yetirilməsini "müharibə cinayətlərinə və ya insanlıq əleyhinə cinayətlərə bərabər tutulan, xüsusi qəddarlıqla törədilən əməl" kimi tövsif edib. Buna baxmayaraq, Dağlıq Qarabağ münaqişəsini və Xocalı soyqırımını törədənlər öz cinayətlərinə görə məsuliyyətə cəlb edilməyib. Üstəlik, onlar Ermənistanın siyasi həyatında fəal iştirak edirlər. Ravvin İsrael Baruk "Xocalı: insanlıq əleyhinə cinayət" kitabında yazır ki, nasist hərbi canilərin, xüsusən öz cinayətlərinə görə lovğalananların beynəlxalq aləmdə qəbul olunmasını təsəvvür etmək mümkün deyil. Xocalı qırğınında təqsirkar olanlar beynəlxalq məhkəmə tərəfindən məsuliyyətə cəlb edilməli və faşistlər kimi cəzalandırılmalıdır.

Azərbaycan tarixi ədalətin planlı şəkildə bərpasına yönəlmiş siyasət yürüdür və mən inanıram ki, Qərbin səhnəarxası siyasi qüvvələri bu səylərə etinasız qala bilməyəcəklər, hərçənd Qərb Xocalıda etnik təmizləmələrlə bağlı faktlar haqqında hər vasitə ilə susmağı üstün tutur. Dünya ictimaiyyəti Azərbaycan xalqına qarşı törədilmiş cinayətləri pisləyəcək, dinc əhalini qətlə yetirənlər müttəhimlər kürsüsündə əyləşəcək və layiqli cəzalarını alacaqlar. Belə cinayətlərə iddia müddəti tətbiq edilə bilməz.

***-Siz Azərbaycanın işğal edilmiş ərazilərinin gələcəyini, o cümlədən Xocalı şəhərinin gələcəyini necə təsəvvür edirsiniz?***

-Azərbaycan həlak olanların xatirəsini ehtiramla yad etməklə bərabər daha irəli getməlidir, axı işğaldan sonra qaytarılmış 8000 kvadratkilometr ərazidə çox işlər görülməlidir. İşğal illərində Qarabağın şərq hissəsi səhraya çevrilib, Ağdam və ya Füzuli kimi rayon mərkəzlərindəki bütün binalar dağıdılıb. Dağlıq Qarabağın bir hissəsi erməni tərəfin nəzarəti altında qalır və oraya rusiyalı sülhməramlılar yerləşdirilib. Atəşkəs haqqında üçtərəfli Bəyanat imzalanıb, lakin gələcək sülh prosesinin bir sıra detalları hələ dəqiqləşdirilməlidir.

Bir məsələ aydındır: işğaldan azad edilmiş regionda normal həyatın bərpa edilməsi üçün Azərbaycan hələ çox iş görməlidir. Şəhərləri və kəndləri təzədən tikmək, tarixi abidələri və dağıdılmış məscidləri yenidən qurmaq, müasir avtomobil magistralları və dəmir yollar salınmalıdır. Füzulidə beynəlxalq aeroport tikintisinə başlanılıb. Bu aeroportun birinci uçuş zolağı cari ilin sonuna qədər istifadəyə verilməlidir, Azərbaycanın mədəni paytaxtı Şuşada Vaqif poeziya günləri və "Xarı bülbül" festivalı keçirilməsi nəzərdə tutulur. Əminəm ki, azərbaycanlılara xas olan əməksevərlik və işğaldan azad edilmiş ərazilərin abadlaşdırılmasına yönəlmiş səylər möcüzələr törədəcək.

Məcburi köçkünlərin doğma evlərinə qayıtması məsələsinə gəldikdə isə burada mürəkkəb məqamlar çoxdur: axı, bir neçə onillik bundan əvvəl tərk edilmiş yaşayış evlərinin çoxu xarabalığa çevrilib. Buna görə qaçqınların çoxdankı arzularına çatması - Qağlıq Qarabağa qayıda bilməsi üçün şərait yaradılmalıdır. Xocalı sakini Məmməd Məmmədovun başına gələn əhvalat məni çox mütəəssir etdi. O, doğma yurdundan götürdüyü bir ovuc torpağı və bir qab suyu 28 il qoruyub saxlayıb, onları özünün yeganə fərəh mənbəyi hesab edib.

Məcburi köçkünlərin Xankəndiyə, Xocalıya və Xocavənd rayonuna qayıda bilmələri üçün Dağlıq Qarabağ rəvan şəkildə Azərbaycana inteqrasiya olunmalı, Azərbaycan və erməni icmaları arasında mehriban qonşuluq münasibətləri qaydaya salınmalıdır, ona görə ki, gələcəkdə dinc yaşamağın başqa yolu yoxdur. Xocalı isə hökmən memorial-şəhərə çevriləcək. Azərbaycan rəhbərliyinin elan etdiyi kimi orada "Xocalı soyqırımı" muzeyi açılacaq. Bu, Xocalı qurbanlarının xatirə yeri olacaq və gələcək nəsillərə bir daha xatırladacaq ki, Yer üzündə dözümsüzlüyə və millətçiliyə yol verilməməlidir.

# Azərbaycanlı şairdən Rəcəb Tayyib Ərdoğana möhtəşəm ad günü hədiyyəsi



Azərbaycan və Türkiyə eyni tarixi, eyni dili və mədəniyyəti bölüşən bir millətin iki dövlətidir. Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə qardaş ölkənin getdikcə güclənməsi, dünyada söz sahiblərindən biri olması bizi də sevindirir, gücümüzə güc qatır. Qarabağ münaqişəsi başlandığı gündən Türkiyə həmişə yanımızda olub. Xüsusən 44 günlük Vətən müharibəsi zamanı Rəcəb Tayyib Ərdoğan başda olmaqla Türkiyə rəsmilərinin, türk xalqının birmənalı siyasi-mənəvi dəstəyi Qarabağ Zəfərinin qazanılmasında mühüm rol oynayıb. Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürk deyirdi: "Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir". Böyük öndər Heydər Əliyev isə qardaşlıq münasibətlərimizi "Bir millət, iki dövlət" kəlamı ilə ifadə edib. Bu gün prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan dostluq və qardaşlığımızı ən uca zirvəyə qaldırıblar. Azərbaycanda Ərdoğan həm də haqq-ədalət uğrunda yorulmaz mübariz kimi tanınır və sevilir. Azərbaycanlı şair Süleyman Əlisanın "Rəcəb Tayyib Ərdoğan" şeiri məhz bu sevgidən qaynaqlanır: İllərin sınağından Uğurla çıxa bildi. Günəştək işıq saçdı, Şimşəktək çaxa bildi. Arzu, istəyi birdir, Fikri, məqsədi birdir. Haqq, ədalət uğrunda Can qoyur neçə ildir... Türkiyə liderinin doğum günü münasibətilə qələmə alınmış həmin şeir əsasında hazırlanan videokompozisiyanı təqdim edirik. Xatırladaq ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 1954-cü il fevralın 26-da anadan olub.

# Azərbaycan XİN-dən Lüksemburq xarici işlər nazirinə cavab



İnsan hüquqları məsələsini siyasi qərəzlilik mövzusuna çevirmək heç kimsəyə, o cümlədən Lüksemburq xarici işlər nazirinə baş ucalığı gətirməz. SİA-nın məlumatına görə, bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Lüksemburq xarici işlər nazirinin BMT-nin İnsan Hüquqları Şurasının 46-cı iclasında çıxışı zamanı səsləndirdiyi bəzi fikirlərə dair şərhində deyilir.

Qeyd edilir ki, 24 fevral 2021-ci il tarixində Lüksemburq xarici işlər və Avropa məsələləri üzrə naziri Jan Asselbornun BMT İnsan Hüquqları Şurasının 46-cı iclasında çıxışı zamanı "Azərbaycan Dağlıq Qarabağda çoxlu dağıntılara səbəb olan hərbi hücumda və Türkiyəni onu dəstəkləməkdə" ittiham etməsi bu dövlət rəsmisinin bölgədəki vəziyyətdən xəbərsiz şəkildə və beynəlxalq hüququn müvafiq prinsiplərinə tamamilə zidd olaraq nümayiş etdirdiyi qərəzli mövqeyinin göstəricisidir:

"Özünü insan hüquqları keşikçisi kimi qələmə verməyə çalışan Jan Asselborn, Ermənistanın 30 ilə yaxın müddət ərzində Azərbaycanın beynəlxalq tanınmış ərazilərinin 20 faizini işğal altında saxlayıb, bu ərazilərdə qanlı etnik təmizləmə həyata keçirərkən, 1 milyondan çox Azərbaycanlının fundamental hüquqlarının kobud şəkildə pozarkən nə səbəbdən bu məsələni bir dəfə də olsun BMT İnsan Hüquqları Şurasında və ya digər müvafiq beynəlxalq platformada qaldırmayıb? Bəlkə Lüksemburq XİN-in Ermənistanın 27 sentyabr tarixində əl atdığı növbəti hərbi təxribat nəticəsində başlayan hərbi əməliyyatlar zamanı Ermənistan silahlı qüvvələrinin məqsədyönlü şəkildə döyüş əməliyyatları zonasından uzaqda yerləşən mülki insanları hədəfə aldığı, 100-dən çox günahsız azərbaycanlını qətlə yetirdiyi barədə məlumatı yoxdur?"

# Xocalı sakini dəhşət saçan anlardan danışdı: İNANILMAZ FAKTLAR!



"Xocalı soyqırımı hər birimizin sağalmayan və qaysaq bağlamayan bir yarasıdır. Bununla belə həmin soyqırım hər bir xocalının heç vaxt yaddan çıxarmayacağı faciədir. Çünki hər birimiz Xocalıda itki vermişik və ev-eşiyimizdən, yurdumuzdan didərgin düşmüşük". Bunu SİA-ya açıqlamasında Xocalı sakini Səriyyə Cəfərova deyib. Onun sözlərinə görə, bu gün faciədə ölən xocalıların çoxunun ağlamağa məzarları belə yoxdur: "Soyuq məzar daşından təsəlli tapa bilməyənlər də var. Aradan 29 il keçməsinə baxmayaraq hələ də bu mövzu yetəri qədər işıqlandırılmayıb. Düzdür, "Xocalıya ədalət" kampaniyası çərçivəsində görülən işlər xeyli sayda ölkələrdə - Meksikada, Peruda, Latviyada, Çexiyada, 52 ölkənin üzv olduğu İslam Əməkdaşlıq Təşkilatında (İƏT), Bosniya-Hersoqovinada və. s yayımlanıb və tanıdılıb. Lakin biz bundan sonra da Xocalıda törədilən cinayətlərin təbliğatı ilə bağlı daha çox işlər görməliyik.

Xatırladım ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə 366-cı motoatıcı alayı erməni birləşmələri ilə birgə Xocalıda görülməmiş vəhşiliklər törətdilər. Xocalı soyqırımı dünyada tanınmalıdır, eyni zamanda da biz bu məsələni beynəlxalq məhkəmələrdə qaldırmalıyıq. Hələ də bu məsələ aktuallığını qoruyub saxlıyır. Qeyd edim ki, 1995-ci ildə serblərin Bosniyada törətdikləri soyqırımı o zamanlar bosniyalılar tanıda bildilər və serblərə cəza da verildi. Amma böyük dövlətlər Xocalı soyqırımını öz maraqlarına görə tanımaq istəmirlər. Amerika Birləşmiş Ştatları, Fransa, İngiltərə kimi dövlətlər maraqlarına görə çıxış edirlər. Bilirsiniz ki, Fransada erməni lobbisi güclüdür və onlar senatlara, parlamentə daha çox təzyiq göstərirlər. Fransada erməniləri təmsil edən senatlar da çoxdur. Mən bir çox ölkələrdə Xocalını tanıtmağa çalışmışam. Beynəlxalq konfranslara qatılmışam, müxtəlif aksiyalar təşkil etmişəm və məqsədim "Xocalıya Ədalət" beynəlxalq təşviqat kampaniyasına dəstək olmaqdır".

"Biz xocalı soyqırımını dünyada tanıtmalı və ermənilərə təzminat ödətməliyik. Necə ki, ermənilər bu günlərdə Türkiyədən təzminat istəyir. Xocalıda bir gecənin içində dinc əhalinin viran qoyulması təsdiq olunsun və ermənilərdən təzminat tələb edilsin. Bunlar yalnız Azərbaycan xalqına qarşı deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş dəhşətli cinayət əməlidir.

Xocalı soyqırımını törədəndə məqsədləri yalnız bu olub ki, insanların gözünü qorxutsunlar. Amma mən onların içində yaşamışam, onlar elə də güclü deyillər. Onlara nə xalq, nə də millət demək olar. Sadəcə toplumdurlar. Ermənilərin özləri də bilirlər ki, vətənləri yoxdur. Türkmənçay sülh müqaviləsindən sonra ermənilər Xankəndidə gəlib yerləşdilər. Orada erməni yox idi, sonradan ermənilərin axını başladı. Beləcə 1923-cü ildə də qondarma rejim yaratdılar. Xocalı yeddi min türkün yaşadığı bir məkan idi. Təəssüflər olsun ki, Xocalıya rayon statusu vermədilər, əksinə, az sayda əhalisi olan Əsgərana verdilər. Bizim əsas bəlamız məhz Əsgərana rayon statusu verilməsi ilə başladı. Əgər Xocalıya rayon statusu verilsəydi, biz bəlkə də soyqırıma məruz qalmazdıq"-deyə, S.Cəfərova bildirib.

Xocalı sakini deyib ki, bu gün sevindirici haldır ki, 2020-ci ilin 27 sentyabrında Ermənistanın təxribatçı əməllərinə qarşı Azərbaycan Ordusunun apardığı əks-hücum əməliyyatları nəticəsində 44 günlük müharibədə torpaqlarımız işğaldan azad olundu: "Ermənilər rusiya sülhməramlılarının köməyi ilə qondarma rejimin yaranmasının 33 illiyini keçirməyə nail oldular. Amma bu, erməniləri ruhlandırmasın. 44 günlük savaşda Ali Baş Komandan və müzəffər ordumuz işğalçılara gücünü göstərdi. Yağı düşmən anlamalıdır ki, Azərbaycan dövlətinin və xalqının əzmini qırmaq olmaz".

*Qönçə Quliyeva*

# Bəhruz Quliyev: Mediada yeni düşüncə, yeni layihə və yeni baxış prizmasına ehtiyac var




Son zamanlar media sahəsində bir sıra yeni və münbit islahatlar mexanizminə keçidin reallaşdırılması tələbi özünü daha çox göstərməyə başlayıb. Xüsusilə, jurnalistika fəaliyyəti və bu fəaliyyət çərçivəsində şəffaflığın, azad rəqabət meyarlarının köklü şəkildə bərpasına ehtiyac yaranıb. Bunu Trend-ə açıqlamasında "SƏS" qəzetinin baş redaktoru, ekspert Bəhruz Quliyev deyib.

Onun sözlərinə görə, mətbuat sahəsində yaranmış mövcud durum ürəkaçan deyil və belə bir arzuolunmaz vəziyyətdən çıxış yolunu tapmaq gerçək media təmsilçilərinin üzərinə düşür: "Yəni fakt budur ki, ləğv olunmuş KİVDF-nin yerinə yaradılmış perspektivli qurum - Media İnkişaf Agentliyinin timsalında yeni düşüncələrə, yeni layihələrə və yeni baxış prizmasına ehtiyaclar yaranıb, bu ehtiyacların gerçəkliyə çevrilməsində isə real mətbuat adamlarının təklifləri alınmalı, müştərək qərarlar qəbul edilməlidir. Çünki tarixi ənənələrə malik olan Azərbaycan mətbuatı korroziyaya uğradılıb, həqiqi jurnalistlər, mətbuat adamları, ölkə mətbuatında xüsusi əhəmiyyətə, çəkiyə malik olan qurumlar isə demək olar ki, sıxışdırılaraq bir kənara atılıb. Buna isə əlbəttə ki, yol vermək olmaz. Məhz bu baxımdan nəticəyə gəlmək olar ki, Media İnkişaf Agentliyi mövcud problemlərin aradan qaldırılmasında öz sözünü uğurla deyə biləcək. Bizlər - media qurum rəhbərləri isə söz yox ki, bu kimi məsələlərdə öz dəstəklərimizi, fikir və təkliflərimizi davamlı surətdə təqdim edəcəyik. Çünki yalnız indiki vaxtda deyil, gələcək nəsillərə də sağlam mətbuatın ötürülməsi bizlərin öhdəsinə düşür".

Ekspert vahid jurnalist vəsiqəsi təklifi ilə bağlı da münasibətini açıqlayaraq bildirib ki, əslində belə bir vasitə Avropa ölkələrində də tətbiq olunur. O cümlədən, Türkiyədə "basın kartı" deyilən vəsiqə mövcuddur ki, həmin vəsiqə ilə hərəkət edən jurnalistlər bir çox imtiyazlara malik olmaları ilə yanaşı, dövlət əhəmiyyətli tədbirlərə qatılmaq imkanını əldə edirlər. "Düşünürəm ki, yalnız bu deyil, digər imtiyazları da əldə etmək üçün Azərbaycanda həmin təbiqin həyata keçirilməsi zərurəti yaranıb və bu olarsa, qərəzli, böhtançı işlərlə məşğul olan, adları qara siyahılara əlavə edilən saxtakarlar bundan sonra öz kirli əməlləri ilə milli mətbuatımızın adına ləkə atmaq imkanlarını tamamilə itirməli olacaqlar", deyə Bəhruz Quliyev vurğulayıb. Baş redaktor sonda bildirib ki, Media İnkişaf Agentliyi belə bir ilkin təklifləri önə sürməklə artıq müasir islahatların həyata keçirilməsi yönündə addımlarını atmağa başlayıb.

# Almaniya portalında "Xocalı: Azərbaycanlılara qarşı erməni soyqırımı" adlı məqalə dərc olunub




Almaniyanın "nex24.news" xəbər portalında "Potsdam" Universitetinin professoru Vilfrid Furmanın "Xocalı: Azərbaycanlılara qarşı erməni soyqırımı" adlı məqaləsi dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalədə 1991-ci ilin sonunda Xocalıdakı demoqrafik vəziyyət, faciənin tarixçəsi, 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə 613 azərbaycanlı mülki şəxsin amansızcasına qətlə yetirilməsi, həmin gün şəhərin tamamilə dağıdılması, şəhərdə etnik təmizləmə siyasətinin həyata keçirilməsi, tarixi torpaqlarında yaşayan azərbaycanlılara qarşı soyqırımının törədilməsi barədə məlumat verilir. Qeyd olunur ki, bu qanlı hadisə azərbaycanlıların milli yaddaşında dərin iz buraxıb. Dünya ictimaiyyətinin böyük hissəsi hələ də bu məsələ ilə bağlı susqunluq nümayiş etdirir.

# Əsrin faciəsi: Xocalı soyqırımından 29 il ötür

**Ermənistanın Azərbaycana qarşı işğalçılıq və soyqırımı siyasətinin tərkib hissəsi olan, beynəlxalq hüququn norma və prinsiplərinin, insan hüquq və azadlıqlarının kütləvi şəkildə və kobudcasına pozulması ilə nəticələnən Xocalı soyqırımından artıq 29 il ötür. Bu soyqırımı erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı uzun müddət davam edən etnik təmizləmə və soyqırımı siyasətinin daha bir dəhşətli nümunəsidir. Xocalıda törədilən əməllər ümumbəşəri dəyərlərə tamamilə ziddir. Ermənilərin azərbaycanlılara qarşı yürüdülən soyqırımı siyasətinin tarixi əsrləri əhatə edir.**

















Ötən əsrin ən böyük faciələrindən biri kimi tariximizdə iz salan Xocalı soyqırımı XX yüzillikdə insanlığa qarşı törədilən ən amansız faciələrdən sayılır. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilən Xocalı soyqırımı xalqımızın növbəti faciəsini yaşadığı bir tarixdir. Soydaşlarımızın xüsusi amansızlıqla qətlə yetirildiyi o qış gecəsinin dəhşətli anları, hər bir azərbaycanlının qan yaddaşına elə çökmüşdür ki, bu hadisələri kiminsə unutmağına inanmaq qeyri-mümkündür. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, XX əsrin sonunda bütün dünyanın gözü qarşısında törədilmiş, qəddarlığı və amansızlığı ilə fərqlənən Xocalı soyqırımı erməni millətçilərinin təcavüzkar siyasətinin ən qanlı səhifəsi olmuşdur: “Bu ağır cinayətə görə siyasi-hüquqi məsuliyyət birbaşa Ermənistanın o zamankı və indiki rəhbərliyinin, Dağlıq Qarabağdakı separatçı rejimin üzərinə düşür”.

Xocalı soyqırımı təkcə bizlərin deyil, bütün bəşəriyyətin faciəsidir. Xocalı haqqında həqiqətin dünyada bilinməsi, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün Azərbaycan dövləti bütün zəruri addımları atır. Bu sahədə məqsədyönlü fəaliyyət Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra başlanmışdır. Ulu Öndərin təşəbbüsü ilə Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilmiş, fevralın 26-sı “Xocalı soyqırımı günü” elan edilmişdir. Bu il bizlər, Xocalı soyqırımının 29-cu anım ilini qeyd edirik.

Təbii ki, bu tarixi gündə törətdilən vəhşiliklər insanlarda erməni terrorizminə, onların işğalçılıq siyasətinə, insanlığa sığmayan əqidə və məsləkinə qarşı dərin nifrət hissi oyadır. Soyqırımı milli düşüncə tərzimizə, milli dəyərlərimizə, milli əxlaqımıza o dərəcə nüfuz etmişdir ki, faciənin törəmə tarixini keçmiş kimi qəbul edə bilmirik. Xalqın qan yaddaşında kök salmış hadisələr heç zaman bizi tərk etməyəcək və zaman-zaman ağrıdacaqdır.

Xatırladıq ki, yeddi min əhalisi olan Xocalı, erməni terrorçu qrupları keçmiş SSRİ-nin 4-cü ordusunun 23-cü diviziyasının tərkibində olan 366-cı alayının köməyi ilə müxtəlif növ silahlardan atəşə tutularaq, yerlə yeksan edilmişdir. Qəddarcasına həyata keçirilmiş terror əməliyyatı nəticəsində, 613 nəfər şəhid olmuş, onlardan 56-cı xüsusi qəddarlıqla qətlə yetirilmiş, 487 nəfər ağır yaralanmış, 1430 nəfər əsir götürülərək amansız işgəncələrə məruz qalmış, onların 135 nəfərinin taleyi hələ də məlum deyildir. Şəhid olanların 106 nəfəri qadın, 63 nəfəri uşaq, 70 nəfəri isə qocalar olmuşdur. 8 ailə tamamilə məhv edilmiş, 27 ailənin hərəsindən yalnız bir nəfər sağ qalmışdır. Soyqırımı aktı zamanı öz torpaqlarını tərk etmə-

Hadisələri ardıcıllıqla izləsək, görərik ki, Azərbaycanın başına gətirilən olaylar tarixdə, demək olar ki, eyni ssenari üzrə cərəyan edib. Artıq dərk edirik ki, ermənilər tarixən təkcə bizlərə qarşı deyil, bütün türk dünyasına qarşı torpaq iddiaları ilə çıxış edib. Belə ki, tarixi reallıqlar, bizə deməyə əsas verir ki, 1905-1907, 1918-1920, 1948-1953-cü illərdə Cənubi Qafqazdakı tarixi ərazilərində etnik təmizlənmə və soyqırımı siyasətinə məruz qalan yüz minlərlə Azərbaycan türkləri erməni daşnakları tərəfindən kütləvi surətdə qətlə yetirilmiş və ata-baba yurdlarından deportasiya edilmişlər.







# Əsrin faciəsi: Xocalı soyqırımından 29 il ötür









yə məcbur olan Xocalı sakinləri ölkəmizin 40 rayonunda məskunlaşmışlar.

Beləliklə, dünyanın gözü qarşısında ermənilər bəşəriyyət tarixində ən ağır cinayətlərdən birini - Xocalı soyqırımını törətdilər. Xocalıda terror əməliyyatının planı əvvəlcədən hazırlanmışdı. Xocalıda erməni terrorizminin amansızlığını təsdiq edən faktlardan biri də odur ki, terror əməliyyatı zamanı istifadəsi qadağan olunan xüsusi təhlükəli kütləvi qırğın silahlarından geniş istifadə olunmasıdır. Belə ki, vaxtilə Novosbirisk şəhərində "Suxoy" Hərbi-Sənaye Kompleksində baş konstruktor işləyən Mixail Poqosyan keçmiş SSRİ MN-in baş qərargahında ixtira etdiyi yeni mərmilərin radiusunu, hədəfdəymə məqamlarını sınaqdan çıxarmaq üçün ən gözəl coğrafi cəhətdən dəyərli yer-məkan Azərbaycanın qərb zonasını təklif etmişdir və Xocalı seçilmişdir. Xocalı şəhərində həyata keçirilən genişmiqyaslı soyqırımı zamanı SSRİ-nin hərbi-sənaye komplekslərində möhtəşəm yer tutan "T-80" tanklarının mühərriki, tərkibində kimyəvi silahlara məxsus başlığı olan mərmilər, Kalaşnikov avtomatına məxsus yeni güllələr, vərəm və "Sibir xorası" əleyhinə vaksinlər və zirehli geyimlər sınaqdan çıxarılıb. Beynəlxalq ictimaiyyət bu hadisə ilə yaxından tanış olsa da, təəssüflər olsun ki, vəhşiliklərə bəzi hallarda göz yumur.

Bu gün dünya ictimaiyyətinə Azərbaycan həqiqətləri geniş şəkildə çatdırılır. Dünya insanı Xocalıda baş verən olayları layiqli və düzgün qiymətləndirir. Bu gün Xocalı soyqırımının tanınması Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, eləcə də, bu soyqırımına obyektiv qiymət verilməsi istiqamətində, davamlı olaraq, addımlar atılır. Aparılan bu uğurlu siyasətin nəticəsidir ki, dünya ölkələrinin bir qismi tərəfindən Xocalı soyqırımının rəsmən tanınması barədə qərar qəbul edilib. Faciəni qətliam kimi tanıyan ABŞ ştatları - Texas ştatı, Nyu-Cersi ştatı, Corciya ştatı, Men ştatı, Nyu-Meksiko ştatı, Arkanzas ştatı, Missisipi ştatı, Oklahoma ştatı və başqa ştatları qətnamə qəbul ediblər.

Bildiyimiz kimi, belə bir faciəyə siyasi-hüquqi qiymət vermək istəməyən dövlətlər də var. Bu gün, təbii ki, Avropa dillərində çap olunan kitablar, çəkilən filmlər və s. Xocalı həqiqətləri ilə dünya ictimaiyyətini baş-başa qoyur. Beynəlxalq qurumlar qarşısında fikirlərimizi qətiyyətlə söyləyə bilirik. Xocalı soyqırımı dünya ictimaiyyətinə çatdırılması və bu istiqamətdə gerçəkləşən layihələrin artıq coğrafi məkanı ilbəil genişlənir. Bu, Azərbaycanın dünyada formalaşan imicinin məntiqidir.

Xocalı soyqırımı təkcə Azərbaycanın deyil, bütün dünyanın və bəşərin faciəsidir. Dinc insanları məhv edən cinayətkarlar tezliklə ədalət məhkəməsi qarşısında cavab verməli və layiqli cəzalarını almalıdırlar.

***Zümrüd BAYRAMOVA***







# Qarabağ nura qərq olacaq...

**Prezident İlham Əliyev işğaldan azad edilmiş Qarabağa hər səfəri ilə tarix yazır. Bu səfərlərin hər biri Qarabağa bütövlük, yenilik və inkişaf gətirir, xalqımıza tarixi anlar yaşadır, insanlarda xoş təəssürat yaradır.**



Dövlət başçısının işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi, inkişaf etdirilməsi barədə Qarabağdan səsləndirdiyi bəyanatlar, müraciətlər ictimaiyyət tərəfindən böyük ruh yüksəkliyi, qürur hissi və coşqu ilə qarşılanır. Vətəndaşlarımız ölkə başçısının hər səfərində bu bölgədə reallaşdırılan ilkin infrastruktur layihələrinin, müəssisələrin açılışını və təməlqoyma mərasimlərini diqqətlə izləyir, uğurlarımıza sevinir və qürur hissi keçirirlər.

İşğaldan azad edilmiş ərazilərdə qısa müddətdə başladılan quruculuq işləri hamıda belə bir əminlik yaradır ki, Prezidentimizin hər bir sözü imzası qədər qiymətli və keçərlidir: "Bu gün mən azad edilmiş torpaqlara yenidən gəlmişəm. Bu gün bu torpaqlarda bir neçə tədbir keçirilir. Bu tədbirlərin məqsədi azad olunmuş torpaqları tezliklə bərpa etməkdir ki, insanlar buraya qayıtsınlar və bu torpaqlara həyat gəlsin" deyən ölkə başçısının Qarabağa səfərləri çərçivəsində bu ərazilərdə inşa edilən yeni istehsal müəssisələrinin, strateji obyektlərin təməlinin qoyulması, infrastrukturun yaradılması yolların çəkilməsi və digər tədbirlər iqtisadi-sosial, siyasi və mənəvi cəhətdən çox mühüm əhəmiyyət kəsb edir.

Fevralın 14- də Prezident İlham Əliyevin Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfəri çərçivəsində ilk tədbirlərdən biri Füzuli rayonunda Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlinin qoyulması oldu. Ümumi uzunluğu 100 kilometr olan bu dəmir yolu xəttinin strateji əhəmiyyəti olduqca böyükdür. Azərbaycan üçün tarixi əhəmiyyət kəsb edən layihənin başlanğıcı kimi qiymətləndirilməli olan bu nəqliyyat infrastrukturu vətəndaşlarımızın işğaldan azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq. Digər vacib məsələ isə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsi yaranacaq.

İşğaldan azad edilmiş torpaqların bərpası prosesinin artıq başladığını bildirən ölkəmizin başçısı ilk "ağıllı kənd" layihəsinin məhz Zəngilan rayonunun Ağalı kəndində icra ediləcəyəni diqqətə çatdırdı. Kənddə layihənin icrası əsasən 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələridir. İnşa ediləcək 200 evdən ibarət kəndin enerjiyə olan tələbatı yalnız alternativ enerji mənbələrindən əldə olunacaq.

Dövlətimizin başçısı düşmən əsarətindən azad edilmiş Laçın rayonunda Həkəri çayı üzərində yerləşən 8 meqavat gücündə "Güləbird" Su Elektrik Stansiyasının işə saldı. Bu stansiya təxminən 7000 nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Burada istehsal olunan elektrik enerjisi Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcək.

Məlum olduğu kimi, Kəlbəcər-Laçın zonasında su elektrik stansiyaları üçün təbii şərait çox əlverişlidir. Buna görə də vaxtilə burada bir çox stansiyalar olub. Düşmənlərimiz işğal dövründə bu stansiyalardan istifadə edib, bu əraziləri tərk edərkən bütün bu su elektrik stansiyalarını darmadağın edib. Hazırda ölkə başçısının tapşırığı ilə bu ərazilərdə erməni faşistləri tərəfindən dağıdılmış bütün su elektrik stansiyalarını bərpa edilməsi istiqamətində də ciddi addımlar atılır. Belə ki, Laçın rayonu ərazisində 5 su elektrik stansiyası yenidən bərpa ediləcək. Kəlbəcər rayonunda isə 12 su elektrik stansiyası yenidən qurulacaq. Beləliklə, yalnız Kəlbəcər və Laçın rayonlarında dağıdılmış və bərpa ediləcək stansiyaların generasiya gücü 120 meqavat olacaqdır. Bu generasiya gücü ilə ərazilər bərpa ediləcək, beləliklə də bölgənin dayanıqlı enerji ilə təmin edilməsində ciddi nailiyyətlər qazanılacaq.

Ölkə başçısının qeyd etdiyi kimi, bərpa olunan enerji növlərinin bu bölgədə çox böyük potensialı var. Onların arasında "Xudafərin" və "Qız Qalası" su elektrik stansiyaları ən böyük potensiala malik olacaq: "Bu stansiyaların tikintisi ilə bağlı İran İslam Respublikası ilə razılığa gəlmişik. Yaxın gələcəkdə bu su elektrik stansiyaları tikiləcək və beləliklə, Azərbaycan tərəfinə bu stansiyaların fəaliyyətindən düşən generasiya gücü 120 meqavat olacaqdır. Yəni, biz bir neçə ildən sonra 120 meqavat "Xudafərin" və "Qız Qalası" stansiyalarından, 120 meqavat isə Kəlbəcər və Laçın rayonlarındakı su elektrik stansiyalarından alacağıq. Bu, 240 meqavat generasiya gücü deməkdir və bunun üstünlüyü odur ki, bu, su elektrik stansiyalarıdır və enerjinin maya dəyəri çox aşağıdır. Bununla paralel olaraq, artıq göstəriş vermişəm ki, bizim azad edilmiş bütün digər torpaqlarda bərpaolunan enerji növlərinin və yerlərin müəyyənləşdirilməsi prosesinə start verilsin".

44 günlük Vətən müharibəsində Müzəffər Azərbaycan Ordusunun tarixi qələbəsi nəticəsində işğaldan azad edilmiş torpaqlarda hazırda bərpa-quruculuq işləri ardıcıl və sistemli şəkildə icra olunur. Bu baxımdan əminliklə demək olar ki, burada tikilən və bərpa olunan su elektrik stansiyaları bölgənin inkişaf və tərəqqisinə böyük töhfələr verəcək, Qarabağ nura qərq olacaq, "yaşıl enerji" zonası kimi bütün dünyaya nümunə göstəriləcək.

*Zahid Rza*

## Türkiyə ilə Preferensial Ticarət Sazişi Azərbaycana nə qazandıracaq?



Mart ayının 1-dən Azərbaycan və Türkiyə arasında Preferensial Ticarət Sazişinin icrasına başlanılır. Preferensial Ticarət Sazişinin məqsədi mallar üzrə tariflərin azaldılması və ya ləğv olunması, para-tariflərin və qeyri-tarif maneələrinin ləğv olunması, iqtisadi əlaqələrin harmonik inkişafı vasitəsilə ticarətin genişləndirilməsi və təşviq edilməsi, ədalətli rəqabət üçün əlverişli şərtlərin yaradılması, ticarətin davamlı artımı üçün proqnozlaşdırıla bilən və təhlükəsiz mühitin yaradılmasıdır. Ötən il fevralın 25-də Bakı şəhərində imzalanan Saziş il ərzində hər iki ölkənin parlamenti tərəfindən ratifikasiya olunub. Maraqlıdır, Türkiyə ilə preferensial ticarət sazişi ölkəmizə nə qazandıracaq?

İqtisadiyyat naziri Mikayıl Cabbarov sosial şəbəkə hesabında yazıb ki, Azərbaycan və Türkiyə arasında Preferensial Ticarət Sazişinin qüvvəyə minməsi iqtisadi-ticarət əlaqələrini daha da genişləndirəcək. "Saziş bir sıra məhsullarımızın Türkiyəyə güzəştli şərtlərlə - gömrük rüsumu ödəmədən ixracına imkan yaradacaq", - o qeyd edib.

Qeyd edək ki, ötən il iki ölkə arasındakı ticarət dövriyyəsi 7,73 faiz azalaraq 4 milyard 160 milyon 824,69 min ABŞ dolları təşkil etsə də, tərəflər yaxın illərdə bu göstəricini 15 milyard dollara yüksəltməyi qarşıya hədəf qoyublar. Buna nail olmaq üçün sözügedən Sazişdə 15 mal qrupu üzrə hər iki ölkə arasında həm kvota, həm də rüsumun sıfıra endirilməsi ilə bağlı mühüm müddəalar öz əksini tapıb.

Türkiyə son bir neçə ildir ki, Azərbaycanın xarici ticarət dövriyyəsində ikinci, o cümlədən ixracında ikinci yerdə qərarlaşıb. 2020-ci ildə Türkiyədən idxalda 5,08 faiz, bu ölkəyə ixracda 9,25 faiz azalma qeydə alınıb. Ümumilikdə, ötən il iki ölkə arasında ticarət dövriyyəsinin saldosu 1 milyard 34 milyon 728,61 min dollar təşkil etməklə Azərbaycanın xeyrinə olub.

Bununla belə, Azərbaycanın Türkiyəyə ixracının 85,45 faizi neft-qaz sektorunun payına düşüb. Azərbaycanın iqtisadiyyatın qeyri-neft-qaz sektorunun inkişafına verdiyi əhəmiyyəti nəzərə alanda, bundan irəli gələrək qeyri-neft ixracı daha prioritetdir. Bu baxımdan Sazişdən əsas gözlənti illik 2 milyard dollardan çox olmayan qeyri-neft ixracının artması ola bilər.

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2019-cı ildə qeyri-neft mühüm növ məhsullar üzrə Türkiyəyə təzə tərəvəz, bitki yağları, meyvə və tərəvəz şirələri, elektrik enerjisi, etilen polimerləri, pambıq lifi və iplіyi, qara metallardan yarımfabrikatlar, emal olunmamış qurğuşun və alüminium,kimya sənayesi məhsulları ixrac edilib.

Lakin burada o da vurğulanmalıdır ki, yerli istehsalın inkişafı ölkə iqtisadiyyatının qarşısında duran bir nömrəli vəzifədir və bu istiqamətdə son illərdə ciddi addımlar atılmaqdadır. Burada, ilk növbədə, ölkədə istehsal olunan məhsulların daxili bazarda rəqabətqabiliyyətliliyinin qorunması amilini qeyd etmək olar. Bu mənada Türkiyədən idxal olunan məhsulların siyahısına nəzərə salanda məlum olur ki, burada ölkəmizdə inkişafda olan kənd təsərrüfatı, inşaat, tekstil və digər sahələrə aid mallar da var.

Nəticə etibarilə, Azərbaycan və Türkiyə arasında Preferensial Ticarət Sazişi aid olduğu məhsulların ixracının artması baxımından əhəmiyyətli olsa da, yerli istehsalın və istehsal potensialı olan sahələrin qorunması da vacibdir. Sazişin gömrük yığımlarına təsiri isə məsələnin digər tərəfidir.

*Ceyhun Piriyev*

## YAP Qazax rayon təşkilatı "Şəhid ailələrinə qayğı" aksiyasını davam etdirir



YAP Qazax rayon təşkilatının nümayəndələri "Şəhid ailələrinə qayğı" aksiyası çərçivəsində Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimizin ailələri, sağlamlığını itirmiş qazilərimizi mütəmadi olaraq ziyarət edirlər. Aksiya çərçivəsində növbəti ziyarət rayonun şəhidləri Elməddin Pənahov Məqsəd oğlunun, İlkin Şükürov Aslan oğlunun, Anar Nağıyev Sahib oğlunun və Kamal Kərimov Ələddin oğlunun məzarlarının ziyarət edib, önünə gül dəstələri düzüblər. Sonra YAP Qazax rayon təşkilatının sədri Həmid Pənahov və aparat əməkdaşları görüşdə şəhidlərimizin qəhrəmanlıq dastanına çevrilən döyüş yoluna nəzər saldılar, möhtərəm Prezidentimiz, Azərbaycan Silahlı Qüvvələrinin müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında igid əsgər və zabitlərimizin döyüş meydanında qazandığı möhtəşəm Qarabağ Zəfərinin xalqımız üçün tarixi əhəmiyyətini xüsusi vurğulayıb. Diqqətə çatdırılıb ki, Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, qazilər, Müzəffər Ordunun qalib əsgərləri daima Yeni Azərbaycan Partiyasının xüsusi diqqət və qayğısı mərkəzindədir. Sonra şəhid ailələrinə ərzaq sovqatı və maddi yardım göstərilib. Şəhid ailələrinin üzvləri və qazilərimiz onlara göstərilən diqqət və qayğıya görə dövlət başçısına, bütün yerli strukturlara təşəkkürlərini bildiriblər. Torpaq, uğrunda ölən varsa, Vətəndir! Allah bütün Şəhidlərimizə rəhmət eləsin!

*Rəfiqə HÜSEYNOVA*

## DİQQƏT! Bu şəhərdən Bakıya uçuşlar başlayır




"Ural Hava Yolları" Yekaterinburq-Bakı-Yekaterinburq marşrutu üzrə çarter reysləri həyata keçirəcək. Bu barədə daşıyıcının Mətbuat xidməti məlumat yayıb. Məlumata görə, uçuşlar martın 11-dən başlayacaq və hər həftənin cümə axşamı həyata keçiriləcək. Şirkətdən qeyd olunub ki, koronavirus pandemiyası ilə bağlı mövcud məhdudiyyətlər səbəbindən hazırda Azərbaycana yalnız Azərbaycandakı diplomatik nümayəndəliklərin, konsulluqların əməkdaşları və rəhbərləri və onların ailə üzvləri, ailə üzvləri Azərbaycan vətəndaşı olan əcnəbi vətəndaşlar, Azərbaycanda işləmək üçün icazəsi olan əcnəbi vətəndaşlar, həmçinin Azərbaycanda daimi və ya müvəqqəti yaşamaq icazəsi olan əcnəbi vətəndaşlar və Azərbaycanın ali məktəblərində təhsil alan əcnəbi tələbələr uça bilər.

"Azərbaycandan Rusiyaya isə Rusiya Federasiyası hökumətinin 635 saylı əmri ilə Rusiyaya daxil olma əsası olan vətəndaşlar uça bilərlər. Hava limanına təyyarənin Bakıdan yola düşməsindən ən azı 4 saat əvvəl gəlmək lazımdır. Həmçinin koronavirusla bağlı PZR testləri də tələb olunur", - şirkətdən əlavə ediblər./report

Dünyanın bir çox televiziya və radio kanallarının platformasında qlobal yayım xidmətləri göstərən "View Satellite Network" şirkəti "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti (ASC) ilə əməkdaşlıq müqaviləsi imzalayıb.

# Milli Prioritetlər növbəti 10 ildə həlli vacib olan istiqamətləri özündə əks etdirir



**"Uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər, milli və multikultural dəyərlər qarşıdakı illərdə Şərqlə Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır. Bu imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir. Azərbaycan dövləti ölkədə əhalinin rifahının daha da artırılması üçün sosialyönümlü bazar iqtisadiyyatının inkişaf etdirilməsi yolunu seçmişdir".**

Prezident İlham Əliyev cənablarının "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında sərəncamında qeyd edilən bu fikirlər bir daha təsdiq edir ki, dövlət başçısının müəyyən etdiyi Milli Prioritetlər qarşıdakı 10 il ərzində ölkəmizdə müşahidə olunan sosial-iqtisadi inkişafı tamamilə və keyfiyyətcə yeni mərhələyə yüksəldəcək.

Dövlət başçısının imzaladığı "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında sərəncamda deyildiyi kimi, Azərbaycan iqtisadi, sosial, siyasi və mədəni inkişafının tarixi dönüş mərhələsini yaşamaqdadır. Son 17 ildə dinamik inkişaf əsasında ölkə iqtisadiyyatının həcmi 3 dəfədən çox böyüyüb, güclü sosial-iqtisadi infrastruktur yaradılıb. Mövcud maliyyə imkanları tarixi maksimuma çatdırılıb və ölkə yuxarı orta gəlirli dövlətlər qrupunda möhkəmlənib. Artan iqtisadi güc Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarını dəyişdirməyə qadir böyük layihələrin təşəbbüskarı olmaq imkanı verib. Ölkə regional iqtisadiyyatın lokomotivi olaraq dünyanın enerji təhlükəsizliyinin etibarlı tərəfdaşlarından birinə çevrilib. Bütün bunlar Azərbaycanın regionda iqtisadi rolunu yüksəldib, xarici təsirlərə davamlı olmasına və müstəqil dövlət kimi suverenliyinin bərpasına möhkəm zəmin yaradıb.

Bu nailiyyətlər 44 günlük Vətən müharibəsindəki tarixi qələbəyə də transformasiya olundu. Ötən il noyabrın 10-da imzalanmış tarixi bəyanatla Azərbaycanın siyasi və iqtisadi suverenliyinin təmini işğaldan azad edilmiş ərazilərin mövcud iqtisadi potensialından ölkə əhalisinin rifahı üçün tam istifadə olunmasına real zəmin yaradır. Əlbəttə ki, əldə edilmiş qələbə qarşıdakı illərdə sistemli və davamlı islahatlarla inkişafa yeni imkanlar açacaq. Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcək. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, yüksək rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcək. Prezident İlham Əliyev tərəfindən müəyyən edilmiş Milli Prioritetlər növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafını yeni, keyfiyyətcə daha yüksək mərhələyə çıxaracaq. Bu gün Azərbaycan, əslində, indiyədək dünyanın heç bir ölkəsində müşahidə olunmamış dinamika ilə öz inkişafına davam edir.

Bununla belə dövlətimizin başçısı tərəfindən növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair müəyyən edilmiş beş Milli Prioritetlər bu inkişafı artıq tamamilə yeni, keyfiyyətcə daha yüksək və daha dinamik bir mərhələyə çıxaracaq. Birmənalı olaraq, bu Milli Prioritetlər böyükdən kiçiyə, bütün təbəqələri əhatə etməklə bütün insalarımızın rifah səviyyəsinin yüksəlməsinə və dövlətimizin iqtisadi qüdrətinin artmasına sərrast hesablanmışdır.

Bu sənəddə, ən əsas hədəf işğaldan azad olunan torpaqlarımızın bərpasıdır. Sənəddə deyilir ki, işğaldan azad edilən ərazilərə qayıdan insanların təhlükəsiz yaşayışı təmin edilməli, müasir həyatın əsası olan layiqli yaşayışın bərpası üçün bütün sahələrdə quruculuğa nail olunmalı, bu region ölkənin ən abad guşələrindən birinə çevrilməlidir. Bu məqsədlə həmin ərazilər cəmiyyətin ən sağlam, müasir və abad yaşayış mühitinə çevriləcək, dayanıqlı məskunlaşma üçün müasir prinsiplərə əsaslanan komfortlu yaşayış mühiti yaradılacaq. Planlı şəkildə görülmüş işlərlə hərtərəfli təhlükəsiz və əlverişli həyat şəraitinin yaradılması vətəndaşların məskunlaşması üçün əlverişli imkanlar açacaq. Bunun üçün yeni ərazilərdə layiqli yaşayışın təmin edilməsi, müasir infrastrukturun qurulması, xidmətlərin əlçatan olması nəzərdə tutulur. Bundan əlavə, Böyük Qayıdış əsas hədəflərdəndir və insanların azad olunmuş ərazilərdə yerləşdirilməsi mərhələli şəkildə həyata keçiriləcək. Birinci mərhələdə dəymiş ziyanın qiymətləndirməsi, infrastrukturun formalaşdırılması, növbəti mərhələdə sosial obyektlərin inşa edilməsi və məskunlaşmanın reallaşması həyata keçiriləcək. Bu da, Böyük Qayıdışın reallaşmasına imkan yaradacaq.

Göründüyü kimi, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" Azərbaycanın davamlı yüksəlişinə böyük töhfələr verməklə bərabər, bu Milli Prioritetlərin reallaşması həm də milli birliyimizin daha bir təntənəsi kimi öz təzahürlərini tapacaq. Çünki bu gün Azərbaycanda mövcud olan milli həmrəylik, dövlət və xalq arasında qarşılıqlı etimad istənilən vəzifəni müvəffəqiyyətlə yerinə yetirməyə imkan yaratmaqla yanaşı, Qarabağın dirçəliş prosesini daha da sürətləndirəcək, erməni vandallığının qurbanı olan bütün şəhər və kəndlərini yenidən quracaq və dirçəldəcək. İşğaldan azad edilmiş rayonlarımıza, bütün Qarabağa yeni nəfəs veriləcək, bu torpaqlarda həyat qaynayacaq, Qarabağımız ən yaxın illərdə gülüstana çevriləcək, dünya Azərbaycan xalqının quruculuq əzminin şahidi olacaq.

Bir sözlə, bu Prioritetlər qarşıdakı 10 il ərzində sosial ədalətə əsaslanan idarəetmənin formalaşdırılması ilə iqtisadiyyatın hərtərəfli və dayanıqlı inkişafını stimullaşdıracaq, vətəndaşların sosial rifahını daha da yaxşılaşdıracaq.

***SEYFƏDDİN ƏLİYEV,***
***YAP Masallı rayon təşkilatının sədri***

## KTMT-nin keçmiş baş katibi etirazçılara qoşulub



KTMT-nin keçmiş baş katibi Yuri Xaçaturov İrəvanda Ermənistanın baş naziri Nikol Paşinyanın istefasını tələb edən etirazçılara qatılıb. SİA xəbər verir ki, bu barədə RİA Novostinin xüsusi müxbiri hadisə yerindən bildirib.

Xatırladaq ki, bir qədər əvvəl Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargahı baş nazir Nikol Paşinyanın istefasını tələb etmiş və xalqına qarşı güc tətbiq etməməsi barədə xəbərdarlıq etmişdi. Paşinyan bildirib ki, istefası tələbindən sonra Baş Qərargah rəisi Onik Qasparyanı istefaya göndərib.

Diqqətə çatdıraq ki, çərşənbə günü, Ermənistan prezidenti Armen Sarkisyan, Paşinyanın təklifi ilə Silahlı Qüvvələrin Baş Qərargah rəisinin birinci müavini Tiran Xaçatrianı onun İskəndər barədə dediklərini gülüşlə qarşıladığı üçün vəzifəsindən azad edib.

Həmçinin qeyd edilir ki, Xaçaturov da mitinqin keçirildiyi Azadlıq meydanına gələrək müxalifət liderlərinə qatılıb. Nəzərə çatdıraq ki, bu illər ərzində Xaçaturov Ermənistan Silahlı Qüvvələri Baş Qərargah rəisi, ölkənin müdafiə nazirinin müavini vəzifələrini tutub.

***İnam Hacıyev***

## Müharibədə ölən erməni hərbçilərinin sayı məlum deyil

"İkinci Qarabağ müharibəsində ölən erməni həbçilərinin 3389-nun meyidi identifikasiya olunub". "Sputnik Armeniya" xəbər verir ki, bunu Ermənistanın hərbi prokuroru Vaqe Arutyunyan prokurorluq orqanlarının fevralın 18-də keçirilən müşavirəsində bildirib. Onun sözlərinə görə, 2020-ci ildə xidməti vəzifləri yerinə yetirərkən ölən hərbçilərin yekun sayı hələ məlum deyil: "Hərbçilərin, mülki şəxslərin meyitlərinin axtarışı davam edir. 2020-ci ildə 3 389 hərbçinin meyiti identifikasiya olunub".



Hərbi prokuror bildirib ki, 44 günlük müharibədə 9 094 hərbçi müxtəlif dərəcəli bədən xəsarət alıb. V.Arutyunyanın sözlərinə görə, 2020-ci ildə Ermənistanın hərbi hissələrində 3 016 cinayət qeydə alınıb ki, bu da 2019-cu illə müqayisədə 3 dəfə (ötən il 929 cinayət qeydə alınıb) çoxdur. O deyib ki, 3 016 cinayətin 55 faizi amansızlıq və xüsusi amansızlıqla törədilib. Müşavirədə Ermənistanın müdafiə naziri Vaqarşak Arutyunyan da iştirak edib.

## Azərbaycanda 126 nəfər COVID-19-a yoluxub

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 126 yeni yoluxma faktı qeydə alınıb, 142 nəfər müalicə olunaraq sağalıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.




İndiyədək ölkədə ümumilikdə 233 770 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 228 299 nəfər müalicə olunaraq sağalıb, 3 209 nəfər vəfat edib, aktiv xəstə sayı 2 262 nəfərdir. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 5 438, ötən müddət ərzində isə ümumilikdə 2 576 454 test aparılıb.

## NATO təlimi az qala nüvə müharibəsinə səbəb olacaqmış: məxfi sənəd

Keçmiş SSRİ 1983-cü ildə NATO-nun keçirdiyi "Able Archer" hərbi təlimlərinə görə, ABŞ-a qarşı nüvə müharibəsi etməyə hazırlaşıb. "İki sahil" xəbər verir ki, bu haqda "The Drive" nəşri ABŞ Dövlət Departamentinin məxfi materialına istinad məlumat yayıb.

Sənəddə 1983-cü ildə yaranan qeyri-sabit vəziyyətlə bağlı bir çox təfərrüatlar və Amerika kəşfiyyatının yüksək səviyyəli məmuru general-leytenant Leonard Perrutsanın redaktə olunmamış məlumatı yer alıb. Həmin sənəddə qeyd edilir ki, 2 noyabr 1983-cü ildə, Almaniya Demokratik Respublikasında yerləşən 16-cı sovet ordusun təyyarələri döyüş hazırlığı vəziyyətinə gətirilib.



Nüvə silahları ilə təchiz edilmiş təyyarələr düşmənin birinci xətdə yerləşən hədəflərini məhv etməli idi. Mütəxəssislər SSRİ-nin nüvə müharibəsinə hazırlaşmasını NATO-nun təlimləri nəticəsində yaranan ciddi anlaşılmazlıqla izah edirlər. Onların məqsədi alyansın Avropadakı imkanlarını yoxlamaq və qitədən kənarda nüvə müharibəsi aparmaq imkanlarının real manevrlərlə yoxlamaq olub.

# İnsanlığın öl(dürül)düyü gün...

## 1992-ci ilin 26 fevralında erməni faşistləri bəşəriyyətə qarşı ən dəhşətli cinayətlərdən birini-Xocalı soyqırımını törətdilər

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

***Bəşər tarixi çox faciələrə, çox soyqırımlara, çox dəhşətlərə şahidlik edib. XX əsrdə baş vermiş 2 dünya müharibəsi zamanı baş verən böyük faciələr insanlığın bir daha belə hallara şahidlik etməməsi üçün kifayət qədər təsirli bir dərs olmalı idi. Lakin dünya 60 milyona yaxın insanın öldürüldüyü 2-ci dünya müharibəsində faşizmin bəşəriyyətə hansı dəhşətləri bəxş etdiyini hələ unutmamış əsrin sonunda daha bir faşizm nümunəsinin şahidi oldu...***

### Terrorizm və faşizmin ən böyük nümunəsi

Hələ XIX əsrin əvvəllərindən başlayaraq Qafqaza kütləvi köçürülən ermənilər sonralar böyük qüvvələrin dəstəyinə arxalanaraq azərbaycanlılara qarşı soyqırım siyasəti həyata keçirib. Azərbaycan xalqı son 200 il ərzində onlarla dəfə erməni millətçi-şovinistlərinin davamlı olaraq etnik təmizləmə, soyqırım siyasətinə məruz qalıb, öz tarixi torpaqlarından qovulub, qaçqına, məcburi köçkünə çevrilib və ermənilər tərəfindən kütləvi qırğınlara düçar olub.

XX əsrin əvvəllərində də azərbaycanlılara qarşı erməni soyqırımı davam edib. Bunlardan ən kütləvisi 1918-ci ildə baş vermiş Mart soyqırımıdır. Həmin dövrdə ermənilər Azərbaycanda yaşayan digər xalqlara qarşı dəhşətli qırğınlar törədiblər. 50 min nəfər qətlə yetirilib. Eyni proses Ermənistan ərazisində də həyata keçib.

1988-ci ildən Qarabağ ətrafında başlayan hadisələr 200 min azərbaycanlının öz tarixi torpaqlarından - Ermənistandan didərgin düşməsi ilə nəticələnib. Nəticədə, erməni təcavüzü 1 milyon qaçqın və köçkün öz doğma torpaqlarından didərgin salınıb. Bütün beynəlxalq hüquq normalarına zidd olaraq Ermənistan böyük dövlətlərin yardımı ilə Qarabağı özünə birləşdirmək istəyir, bu yolda bütün cinayət və vəhşiliyə hazır olduğunu nümayiş etdirirdi.

...1992-ci ildə fevralın 26-da erməni silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsində yerləşən Xocalı şəhərində tarixdə misli olmayan dəhşətli soyqırım aktı həyata keçirdilər. XX əsrin sonunda baş vermiş bu qətliam təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir.

Xocalı Xankəndi şəhərindən 14 km şimal-şərqdə yerləşirdi. 1992-ci ilin qanlı faciəsinə kimi Xocalıda 7 min əhali yaşayırdı. Məlum hadisələr dövründə Ermənistandan, qonşu Xankəndindən ermənilər tərəfindən didərgin salınmış xeyli azərbaycanlı və 1989-cu ildə Fərqanədən qovulmuş Axısxa türkləri də burada məskunlaşmışdılar.

1992-ci il fevralın 25-dən 26-a keçən gecə erməni silahlı dəstələri Xocalı şəhərinə hücum etdilər. Dörd tərəfdən erməni terrorçu dəstələri tərəfindən əhatə olunan şəhər artilleriya və ağır hərbi texnikadan güclü və fasiləsiz atəşə tutuldu. Az bir vaxt ərzində şəhərdə böyük miqyaslı yanğınlar baş verdi, şəhər tamamilə alova büründü.

Fevralın 26-sı səhər saat 5-ə kimi şəhər erməni işğalçıları tərəfindən zəbt edildi. Bəşəriyyətin ən qədim yaşayış məskənlərindən olan Xocalı bir gecənin içərisində yerlə yeksan edildi. Qanlı qırğından sağ qalan əhali şaxtalı, çovğunlu havada dağlara, meşələrə qaçdı. Dinc əhalini təqib edən silahlı ermənilər onları güllələyir, ələ keçənləri amansız işgəncələrlə öldürürdülər. Ələ keçirə bilmədikləri insanlar isə dağlarda qarda, şaxtada öldü.




Tarixdə baş vermiş müharibələr zamanı qaliblər işğal etdikləri ərazilərdə heç vaxt mülki əhalini öldürmür, maddi-mədəniyyət abidələrini dağıtmırdılar. Erməni faşistləri isə, həm mülki əhalini- qocaları, körpələri, qadınları vəhşi işgəncələrlə qətlə yetirib, həm də bəşəriyyətin ən qədim abidələrini dağıdıblar. Bu faktlar həmin vaxt bölgədə olan xarici jurnalistlər tərəfindən qeydə alınıb və bununla bağlı dünya mətbuatında materiallar verilib.

### Bəşər tarixinin ən dəhşətli vəhşiliyi

Xocalı soyqırımının nəticələri çox dəhşətli idi. Rəqəmlər belə prosesin miqyasını və həyata keçirilmə formasını ifadə etmək acizdir. Cinayətkar erməni qoşunlarının vəhşiliyi nəticəsində Xocalı əhalisindən 613 nəfər həlak olub. Həlak olanların cins və yaş tərkibi adamı dəhşətə gətirir- 63 nəfər uşaq, 106 nəfər qadın, 70 nəfər qoca. 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. 487 nəfər şikəst olub, onların 76 nəfəri uşaq idi. 150 nəfər isə itkin düşüb.1275 nəfər dinc sakin- qocalar, uşaqlar, qadınlar əsir götürülərək ağlasığmaz işgəncələrə, təhqir və həqarətlərə məruz qalıb.

Bu cinayətdə 56 nəfər xüsusi qəddarlıqla və amansızlıqla qətlə yetirilib. Onlar diri-diri yandırılıb, başları kəsilib, üzlərinin dərisi soyulub, körpə uşaqların gözləri çıxarılıb, süngü ilə hamilə qadınların qarınları yarılıb. Erməni terrorçuları hətta meyitləri də təhqir ediblər. Hüquq-müdafiə mərkəzi diri adamın baş dərisinin soyulması faktını da qeydə alıb.

Xocalı soyqırımının epizodları insanı dəhşətə gətirir. Ermənilər sağ qalmış insanlar üzərində bəşər tarixində misli-bərabəri olamayan vəhşi işgəncələr həyata keçiriblər. Onların başının dərisini soyub, başlarını və bədəninin digər orqanlarını kəsib, uşaqların gözlərini çıxarıb, hamilə qadınların qarnını yarıblar.

Girov götürülmüş Xocalı sakinlərindən bəziləri (onların arasında Əntiqə adlı qadın da var idi) erməni hərbçilərinin tələb etdiyi "bu yerlər böyük Ermənistanın bir hissəsidir" sözlərini dilinə gətirmədiklərinə görə ermənilər tərəfindən diridiri yandırıldı. Xocalı sakinləri deyirdilər ki, onlarla azərbaycanlı və Axısxa türkünün erməni qəbirinin üzərində başını kəsiblər. Onlarla azərbaycanlının gözlərini çıxarıblar.

Xocalı soyqırımı Xatın, Xirosima, Naqasaki və Sonqmi kimi dəhşətli faciələrlə bir sırada dayanır. Lakin soyqırımının dəhşəti təkcə qurbanlarının sayı ilə yox, həm də həyata keçirilmə üsulları ilə ölçülür. Xocalıda baş verənlər ağlasığmaz, inanılmaz və... sadəcə, qeyri-mümkündür. Təbii ki, cinayəti həyata keçirənlər insan olduğu halda...

### Qorxunc cinayət üçün niyə Xocalı seçildi?

Ermənilərin belə bir dəhşətli soyqırımı həyata keçirmək üçün niyə Xocalı şəhərini hədəfə aldıqlarını necə izah etmək olar? Burada fikrimizcə, 3 əsas səbəb var idi. Bu, bir tərəfdən Qarabağın dağlıq hissəsində azərbaycanlılardan ibarət olan, strateji əhəmiyyət daşıyan şəhəri aradan qaldırmaq idisə, digər tərəfdən ümumiyyətlə Xocalını yer üzündən birdəfəlik silərək Azərbaycan xalqının gözünü qorxutmaq idi. Sonuncu səbəb isə, Azərbaycan xalqının çox minillər əvvəldən burada məskunlaşdıqlarını sübut edən Xocalı mədəniyyətini məhv etmək idi.

Xocalı elə bir yaşayış məskəni idi ki, o, Azərbaycan tarixinin qədim dövrlərindən müasir dövrə qədər tarix və mədəniyyət ənənələrini özündə əks etdirirdi. Bəşəriyyətin ən qiymətli irsinə məxsus bu xüsusi mədəniyyət tarixə Xocalı-Gədəbəy mədəniyyəti kimi düşüb. Xocalının kromlexləri, dolmenləri, siklopları, kurqanları və digər abidələri, həmçinin müxtəlif növ məişət əşyaları insan cəmiyyətinin inkişaf dinamikasını özündə əks etdirən maddi mədəniyyət nümunələridir.

Erməni işğalından sonra bütün bu maddi mədəniyyət abidələrinin məhv edilməsi və dünyanın ən qədim məzarlıqlarından sayılan Xocalı qəbiristanlığının texnika vasitəsi ilə darmadağın edilməsi erməni vandalizminin bariz nümunəsi olmaqla yanaşı, dünya mədəniyyətinə, bəşər sivilizasiyasına qarşı ən böyük cinayətdir.

Xocalı qaçqınlarının BMT, Aİ və ATƏT-ə müraciətində deyilir: "...Sizdən xahiş edirik, erməni hərbi təcavüzü nəticəsində bizim başımıza gələn bəlaya laqeyd qalmayasınız. Biz inanırıq ki, dünyanın BMT, Aİ və ATƏT kimi kifayət qədər nüfuzlu beynəlxalq təşkilatları, sülhsevər ölkələri Ermənistan kimi dövlətin belə təcavüzkarlığına və özbaşınalığına qarşı tədbir görəcəklər.

Dünyada qəbul olunmuş beynəlxalq konvensiyalar, ümumbəşəri qanunlar Xocalı faciəsi kimi soyqırımları pisləyir, yolverilməz olduğunu bildirirlər. Azərbaycan xalqı 1948-ci il 9 dekabr "Soyqırım cinayətinin xəbərdarlıq edilməsi və cəzalandırılması" konvensiyasını rəhbər tutaraq, Ermənistan Respublikasına qarşı BMT-nin Beynəlxalq məhkəməsində iddia qaldırmaq üçün bütün hüquqi əsaslara malikdir.

Dünya bilməlidir ki, bu cinayət, təkcə Azərbaycan xalqına qarşı deyil, həm də bütün sivilizasiyalı dünyaya, bəşəriyyətə qarşı yönəldilib. Ermənistanda mühüm dövlət postları tutmuş Serj Sarkisyan, Robert Koçaryan və digərləri baş vermiş soyqırımın günahkarları kimi beynəlxalq məhkəmə qarşısında cavab verməlidir.

Ermənistanın hərbi-siyasi təcavüzü dünya ictimaiyyəti tərəfindən ittiham edilməlidir. Beynəlxalq təşkilatlar, dünya dövlətlərinin parlamentləri Ermənistanın Azərbaycan torpaqlarında törətdiyi hərbi cinayətə- Xocalı soyqırımına, əsl soyqırım hadisəsi kimi beynəlxalq siyasi-hüquqi qiymət verməlidirlər".

### Cinayət cəzasız qalmadı

Bütün bunlar Ermənistanın Cenevrə konvesiyasının protokollarını pozaraq, müharibə qaydalarına zidd olaraq dinc sakinlərə qarşı xüsusi amansızlıqla həyata keçirilən soyqırım olduğunu təsdiqləyir. Xocalı soyqırımının xüsusi amansızlıqla törədilməsi rus, ingilis, fransız, gürcü, alman, amerikalı və digər ölkələrin vətəndaşı olan jurnalist və publisistləri dəhşətə gətirmişdi. Bu, əsil soyqırım idi...

Xocalı soyqırımının əsas müəllifləri hələ də öz layiqli cəzalarını almayıblar. Beynəlxalq aləmdə ikili standartlar hələ də davam edir. Ermənilər isə yaxşı anlayırdılar ki, Azərbaycan gec-tez özünə qarşı həyata keçirilən bütün digər cinayətlərlə yanaşı Xocalı soyqırımının da hesabını soracaq.

Nəhayət, 28 il sonra- 2020-ci ildə həmin gün gəlib çatdı. Sentyabrın 27-də Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu öz işğal edilmiş ərazilərini terroristlərdən və faşistlərdən azad etmək üçün hərbi əməliyyatlara başladı. Ay yarım ərzində Ermənistanın işğalçı ordusu tamamilə darmadağın edildi, Azərbaycanın işğal olunmuş əraziləri düşməndən azad olundu, ölkəmizin ərazi bütövlüyü bərpa olundu. 10 minə yaxın terrorçu faşist məhv edildi, onların arasında Xocalı cinayətində iştirak etmiş xeyli erməni quldurru da var idi. Beləliklə, 28 il sonra Xocalının qisası alındı.

Azərbaycan ədaləti öz gücünə bərpa edərək, həm Ermənistana, həm də onun dəhşətli cinayətlərinə susan bütün dünyaya layiqli dərs verdi. Heç bir cinayət cəzasız qalmır, sadəcə, geci-tezi var. Dünya bu həqiqəti əyani təcrübədə bir daha gördü.

***Elçin Bayramlı***

# Əli Kərimlinin əqidəsi:
# Xalqa nifrət, erməniyə, FETO-çulara dəstək

**Tarixi dəyişmək, saxtalaşdırmaq, unutmaq olmadığı kimi, zamanı da geri qaytarmaq, silmək olmaz. Zamandan səmərəli istifadənin insan həyatı üçün əhəmiyyətini "Vaxt həyatın vicdanıdır, itirilmiş vaxt adamı itirilmiş vicdandan da artıq həyəcanlandırmalıdır" kəlamı ilə dəyərləndirən Azərbaycan yazıçısı Yusif Vəzir Çəmənzəminlinin bu sözləri şər, böhtan yığıncağının baş keşişi olan AXCP sədri Əli Kərimlinin ləkəli vicdanına və boyuna biçilib. Yeri gəlmişkən, keşiş sözünü də təsadüfən işlətmədik. Çünki Əli Kərimli də erməni keşişləri kimi dağıdıcı ruha malik, pis niyyətli, insanlıqdan kənar əməllər sahibidir. Heç özünə də bəlli olmayan " siyasi fəaliyyəti" illərində daim ermənipərəst dairələrlə əməkdaşlıq, erməni əsilli Leyla və Arif Yunus kimilərə məddahlıq edən Əli Kərimlinin ətrafına toplaşanlar terroru, separatçılığı, faşizmi, dini radikalizmi dəstəkləyənlər, qaniçən, quldur "yan"ların göstərişlərini yerinə yetirən şarlatanlar olublar. Necə deyərlər, taylı tayını tapıb.**



Azərbaycanın 44 gün ərzində davam edən müharibədə Ermənistan üzərində qələbəsini sindirə bilməyən, ermənilərin məğlubiyyətinə məyus olub, özünün dərdi kimi qəbul edən Əli Kərimlinin göz yaşları bitmir. Torpaqlarımızın işğaldan azad edildiyi vaxtdan aylar keçsə də, mənsub olduğu xalqın sevincinə qoşulmayan, əksinə, ermənilərə havadarlıq edən "islahatçı sədr" 30 il müddətində bir dəfə də olsun qaçqın, məcburi köçkün soydaşlarımız haqqında ağzını açmamış, onların yaşayışları ilə maraqlanmamış, hüquqlarının müdafiəsi üçün səsini çıxarmamışdır. Hələ də erməni ağzı ilə danışan, düşmən üzərində qələbəmizə sevinməyən, "güclənən Ermənistan ordusu", " gözlənilən üçüncü müharibə", " erməni diasporunun fəaliyyəti" kimi təxribatları ilə qələbəmizə kölgə salmaq ənənələrinə sadiq qalan Əli Kərimli ruhlarını zəhərlədiyi emissarları vasitəsilə Azərbaycana qarşı təxribatlarını davam etdirir, insanlarda mənfi rəy formalaşdırmağa çalışır. Ermənistanın baş nazirinin imzaladığı kapitulyasiya aktını, xarici hərbi ekspertlərin Milli Ordumuz barədə söylədiklərini Əli Kərimliyə xatırladaq: Fərari Ermənistan ordusundan qat-qat güclü olan, dəmir yumruqdan güc alan Azərbaycan Silahlı Qüvvələri düşmənə layiq olduğu cavabı verib, gələcəkdə də rəşadətini göstərmək qüdrətindədir. Əli Kərimlinin xalqımıza qarşı bitməyən xəyanətinin haradan və nədən qaynaqlandığını hamı bilir. Daim yanımızda olan, siyasi, iqtisadi, hərbi tərəfdaş kimi illərdən bəri xalqlarımız arasında qardaşlığa sadiq qalan, milli-mənəvi dəyərlərimiz oxşar olan Türkiyə haqqında belə xoşagəlməyən ifadələr işlədən Əli Kərimli bu hərəkəti ilə əməkdaşlıq etdiyi FETOçuları dəstəkləyir. Dəfələrlə bildirildiyi kimi, özü və oğlu Türkel terrorçubaşı Fətulla Gülənlə daim əlaqə saxlayıb, onun tövsiyələrinə əməl edib. Yəni, FETOçularla ermənilərin Türkiyəyə və Azərbaycana qarşı nifrətini simasızlığında birləşdirən, dostluğumuza təxribatlar ilə ləkə salmağa çalışan Əli Kərimli qatı ermənipərəst olduğu üçün antitürk xəyanətini davam etdirir.

AXC-Müsavat iqtidarının da günahkar olduğu Xocalı soyqırımının ildönümünün yaxınlaşdığı günlərdə də qatil, cəllad, faşist ermənilərə sədaqətini xarici ölkələrdə sığınacaq tapan, yetirməsi Qənimət Zahid, Sevinc Osmanqızı kimilərə müsahibəsində bildirən, əsasən Azərbaycan və Türkiyə əleyhinə çağırışlar edən Əli Kərimliyə xatırladaq ki, onun və onun kimilərinin iqtidarı dövründə ermənilərə satılan torpaqlarımız 44 gün davam edən müharibədə Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti , qüdrətli Milli Ordumuzun döyüş rəşadəti sayəsində əsl sahiblərinə qaytarıldı. AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində ermənilərin xarabazara çevirdikləri, dağıdıb, yandırdıqları ərazilərimiz bu gün əsl quruculuq , abadlıq meydanıdır. Artıq xalq torpaqlarımızı satanları tanıyır və satqınlara nifrət edir. Ərazilərimizi işğaldan azad edənləri dəstəkləyir, dövlət başçımızın müraciətlərindən irəli gələn göstərişlərin yerinə yetirilməsində elliklə iştirak edir.

1992-ci ildə Şuşanın işğalından sonra Laçının, digər rayonların itirilməsində, günahsız insanların qətlə yetirilməsində hakimiyyəti zorla ələ keçirməyə çalışan cəbhəçilər, müsavatçılar da günahkardırlar . "İnsanlar həlak olub, insanların əmlakı dağıdılıb, insanlar öz dədə-baba torpaqlarından didərgin salınıb. Eyni zamanda, Laçın rayonunun işğal altına düşməsi strateji nöqteyi-nəzərdən çox böyük məğlubiyyətimiz idi. Laçın rayonunu satanlar, Şuşanı satanlar eyni adamlardır. Mən bunu demişəm. Bir daha demək istəyirəm ki, Azərbaycan xalqı bunu bilsin və heç vaxt unutmasın. AXC-Müsavat mənfur cütlüyü hakimiyyətə gəlmək üçün bu torpaqları düşmənə satıb" söyləyən Prezident İlham Əliyevin vurğuladığı kimi, iqtidara gəlmək üçün Bakıda mitinqlər təşkil edən, çaxnaşma yaradan, xalqa xəyanət edən hakimiyyət hərisləri iqtidara gələndən az sonra Şuşanı boşaltdılar. AXC-Müsavat iqtidarının müdafiə naziri Şuşanı qoruyan dəstəni şəhərdən çıxarmaqla ermənilərə "yaşıl işıq" yandırdı. Belə ki, Şuşa uğrunda döyüşlərdə hərb tarixində görünməyən qəhrəmanlıq göstərən şəhidlərimizin qarşısında onlar da günahkardırlar. "Sonra Laçın rayonunu da satdılar və ondan sonra heç bir ay keçməmiş hakimiyyətə gəldilər. AXC-Müsavat cütlüyü bu satqınlığı, bu xəyanəti edib, bu cinayəti törədib. 1993-cü ilin aprelində Kəlbəcər də işğal altına düşəndən sonra qorxaqcasına qaçıb gizlənib, fərarilik edib. Azərbaycan xalqı bunu heç vaxt unutmamalıdır, bu satqınları, bu xainləri, bu düşmənləri unutmamalıdır! Onlar satıblar bizim torpaqlarımızı. Biz qaytarmışıq bu torpaqları, qaytarmışıq" sözləri ilə torpaqlarımızı düşmənə satanların kim olduğunu göstərən Prezident İlham Əliyevin bildirdiyi kimi Şuşanın işğaldan azad edilməsi düşmənə və ermənilərlə eyni əqidədə olan əlikərimlilərə vurulan ən böyük zərbə idi.

Qalib Ali Baş Komandan İlham Əliyevin "1992-ci ilin mayında o vaxtkı Azərbaycan rəhbərliyinin və hakimiyyət uğrunda mübarizə aparan AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində Şuşa işğal altına düşdü. O vaxt ermənilər öz dırnaqarası əməliyyatına bir ad vermişdilər - dağlarda toy. Halbuki heç əməliyyat da keçirilməmişdi. Şuşa şəhəri boşaldılmışdı. O vaxtkı müdafiə naziri demişdi ki, Şuşa əldən getsə, başıma güllə çaxacağam. Amma qorxaqcasına Şuşadan qaçmışdı. Ondan sonra isə ermənilər guya bu əməliyyat haqqında əfsanələr uydurmuşdular - dağlarda toy. İndi biz onlara elə toy tutmuşuq ki, onlar bu dərsi əbədi yadda saxlayacaqlar" sözlərindən vahiməyə düşən ermənilərin havadarı Əli Kərimlini də bu cür toylar gözləyir. "İslahatçı sədr" unutmasın ki, vaxt gələcək xəyanətlərinə görə Azərbaycan xalqının ona və bütün satqınlara tutduqları "toy"da, "xınayaxdı"da fərqli cəhətləri ilə seçiləcək. Mühakimə edilən, elin sorğusuna çəkilən, xəyanətlərinin şahidi olan vicdanları susacaq. Hakim isə şəhid ruhları olacaq.

***Xuraman İsmayılqızı***

## Paşinyanı ələ salan general işdən çıxarıldı




Ermənistan Müdafiə Nazirliyinin Baş Qərargah rəisinin birinci müavini Tiran Xaçatryan işdən azad olunub. Bu barədə prezident Armen Sarkisyan sərəncam verib.

Tiran Sarkisyanın istefaya göndərilməsinin səbəbi kimi Paşinyanın "İskəndər" raketlərinin döyüşə yararlı olmaması barədə dediklərinə rişxənd etməsi göstərilir. Jurnalistin Paşinyanın həmin çıxışı ilə bağlı verdiyi suala general gülərək cavab vermişdi. ""İskəndər" raketinin döyüşə yararsız olması əlbəttə mümkün deyil. "İskəndər"? Bir atış?... Cəmi 10%?... Üzr istəyirəm, əlbəttə bu qeyri-ciddi iddiadır"- deyə Xaçatryan rişxəndlə cavab vermişdi.

Xatırladaq ki, Tiran Xaçatryan ötən ilin oktyabrında Qarabağda gedən döyüşlərə görə baş nazir Nikol Paşinyan tərəfindən Ermənistanın Milli Qəhrəmanı adını layiq görülmüşdü.

## Bayden Trampın daha bir fərmanını ləğv edib



ABŞ Prezidenti Co Bayden sələfi Donald Trampın bir sıra kateqoriyadan olan əcnəbi vətəndaşların ölkə ərazisinə girişini məhdudlaşdıran fərmanını ləğv edib. TASS xəbər verir ki, bu barədə Ağ Evin mətbuat xidmətinin açıqlamasında deyilir.

"Koronavirusun yayılmasından sonra iqtisadiyyatın bərpası dövründə ABŞ-da əmək bazarı üçün təhlükə yaradan immiqrantların 22 aprel 2022-ci il tarixindən etibarən ölkəyə girişinin dayandırılması ABŞ-ın maraqlarına cavab vermir, əksinə, ABŞ-a zərər vurur. Müvafiq qərar ləğv edilir", - deyə sənədin mətnində qeyd olunub.

# Mixail Xodarenok: Ermənistan rəhbərliyi bacarıqsızdır, amma Rusiya günahkar olur?

**Xəbər verildiyi kimi, Ermənistanın Baş naziri Nikol Paşinyan Rusiyanın "İskəndər" operativ-taktiki raket komplekslərinin Azərbaycanla müharibədə istifadəsi zamanı işləməməsi barədə danışıb.**



Ermənistan hökumətinin başçısı, ölkənin keçmiş lideri Serj Sarkisyanın, müharibə zamanı niyə İskəndərdən dərhal istifadə edilməməsinə dair sualını şərh edərkən bunları söyləyib: "Düşünürəm ki, onun (Sarkisyanın) bir çox suallarına cavabları olmalı idi və bildiyi sualları, cavablarını verməməliydi. Və ya bəlkə atılan İskəndər raketlərinin niyə partlamadığına və ya yalnız 10 faizinin partladığına cavab verəcək. Bəlkə 80-ci illərin silahıdır, ona görə".

Hərbi ekspert Mixail Xodarenok "Moskva-Bakı" platformasına Paşinyanın dediklərini şərh edib: "Nikol Paşinyan dəfələrlə bu tip açıqlamalar verib. Bir siyasətçi bəzi açıqlamalarla çıxdıqda faktlara istinad etməlidir. Məsələn, "İskəndər"in pis olduğunu deyirsə, dəlil gətirməlidir. Ölkə başçısı "İskəndər"in təsirsiz olduğunu söyləyirsə, zəhmət olmasa, nə qədər raket atıldığını, neçə raketin hədəfə dəydiyini, nə qədərinin buraxıldığını, hansı səbəblərdən qaçdığını, hesablamaların hazırlanmasında günahkar olub-olmadığını və digər suallara cavab versin. Bunun əvəzinə o, tamamilə cəfəngiyyat danışmağa başlayır: raketlərin 10%-i partladı, ya da partlamadı. Heç bir sistem bu şəkildə işləmir. Raketin döyüş başlığı - ya işləyir, ya da işləmir. Əgər bütün mərhələlər qorumadan çıxarılıbsa, təhlükəsizliyi işə salma mexanizmi işlədilibsə, raketlər yaxşı vəziyyətdədirsə və işə salınmadan əvvəl yoxlanılıb və xidmət göstərilibsə, başlıq demək olar ki, 100% effektiv olacaq. Hətta cəfəngiyyatı davam etdirib bunun 1980-ci illərin silahı olduğunu söyləyir. "Aldıqları "İskəndər" ilk dəfə 2016-cı ildə İrəvanda keçirilən bir paradda göstərildi. Ermənistan hökumətinin başçısı səriştəsizcə danışır, nə dediyini anlamır. Ali baş komandan kimi müharibədəki uğursuzluqlarına haqq qazandırır. Axı o, müharibə zamanı vəziyyətin ona verdiyi tələblərin zirvəsində deyildi. Müharibənu uduzdu, indi bəhanə gətirməyə başlayır. Kimdir günahkar? Əlbəttə Rusiya, Rusiya həmişə günahkardır".

***Elçin***

# Nikolun "İskəndər" iddiasından sonra...



Saat əqrəbləri yenidən Azərbaycanın xeyrinə işləməyə başlayır



***Nikol Paşinyanın "İskəndər" bəhanəsindən sonra erməni KİV-lərinin əlinə necə deyərlər, girəvə düşüb və indi də iddia edirlər ki, sən demə əgər keyfiyyətli silahları olsaydı, "Bakıya qədər gedib çıxa, üstəlik, bayraqlarını da yüksəldə bilərmişlər"... Əslində, özlərinin düzüb-qoşduqları nağıl və əfsanələri ilə özlərini "ağıllı", "mübariz", "döyüşçü" xalq olduqlarını zorla dünya ictimaiyyətinə sırıyan ermənilərə yalnız bir məşhur misalı gətirmək olar ki, əslində, yaxşı rəqqasa mane olan bədəninin hansı orqanıdır...***





### Əgər Rusiya Ermənistana, həqiqətən də, 80-ci illərin xlam silahlarını veribsə də, burada Paşinyanı deyil, əsasən Ermənistanın əvvəlki rəhbərliyini də suçlamalıdırlar

Beləliklə, ağır və sarsıdıcı məğlubiyyətlərini Putinin planlarına bağlayaraq çullarını sudan quru çıxarmağa cəhd edən bir sıra erməni KİV-ləri rus prezidentinin Ermənistanın məğlub olması üçün alışıb-yandığını da iddia edirlər. Halbuki, hətta belədirsə, yəni Putin gerçəkdən də Ermənistanın məğlub olmasını istəyirdisə, ermənilər bunun günahını özlərinin siyasətlərində axtarmağa məhkumdurlar.

Bu arada, Ermənistanın baş naziri Nikol Paşinyanın "İskəndər" raketlərinin keyfiyyətsizliyi ilə bağlı fikirləri, parlamentin həmin raketlərin araşdırılması üçün komissiya yaratmaq qərarı da bu kimi iddialara aid etmək olar. Əgər Rusiya Ermənistana həqiqətən də 80-ci illərin xlam silahlarını veribsə də, burada Paşinyanı deyil, əsasən, Ermənistanın əvvəlki rəhbərliyini də suçlamalıdırlar. Çünki müqavilələr məhz onların imzaları ilə atılıb.

İndi isə keçək mətləbin digər hissəsinə. Rusiya tərəfi sözügedən ittihamları rədd etməsi ilə yanaşı, artıq ciddi bəyanatlar səsləndirir, bundan sonra Ermənistana bu tipli silahların verilməməsi ətrafındakı qərarları barədə düşünür.

### Armenianreport: "Rus ekspertləri həyasızlıq sərgiləməsinlər və Suriyadakı "uğurları" barədə xatırlatmalar etməsinlər..."

Lakin etiraf edək ki, Paşinyanın "İskəndər" raketləri ilə bağlı fikirləri səsləndirməsi həm də onun buna eks-prezident Serj Sarqsyan tərəfindən məcbur edilməsi ilə də bağlıdır. Bununla bağlı armenianreport maraqlı məqama toxunub. SİTAT: "Onun (Serj Sarqsyanın) bəyanatından sonra fəaliyyətdə olan baş nazir nə etməliydi? Axı bizim cəmiyyətimiz belədir ki, sussaydı həmin susqunluq razılıq, zəiflik və qorxaqlıq əlaməti kimi qəbul ediləcəkdi. Özü də Sarqsyanın bu məsələ ətrafında özünü qəhrəman kimi təqdim etməsi mənzərəsində. O bildirmişdi ki, müharibənin dördüncü günündə "İskəndər"dən istifadə edərdi və bununla da Paşinyanı elə bir vəziyyətə qoydu ki, o da məcbur qalaraq həmin cavabı səsləndirdi. Axı Sarsyanın məntiqinə görə belə çıxır ki, Nikol düşmənə cavab vermək üçün kütləvi imkanlara malik idi, amma bunu etmədi. Paşinyanın ünvanına onsuz da çoxsaylı xainlik, müharibəyə hazır olmaması, ordunu idarə edə bilməməsi, düşmənin hücumlarının qarşısını ala bilməməsi kimi ittihamlar səslənir..."

Ancaq daha bir məqama da toxunan armenianreport ümumiyyətlə, Rusiya hərbi texnikalarının bir sıra məqamlarda digər ölkələrin texnikaları qarşısında uğur qazana bilmədiyini yazır. SİTAT: "Ötən ilin martında Türkiyənin zərbə PUA-sı Suriyada "Pansir-S1" kompleksini məhv etmişdi. Aviazərbənin videosu Twitter resursunda yaymlanan Clash Report-da türk ordusunun Suriyadakı uğurlarının nümayişi zamanı göstərilmişdi. Belə ki, Rusiya "Pansir-S1" kompleksini Suriya prezidenti Bəşər Əsədin ordusuna vermişdi ki, onlar havadan müdafiələrini gücləndirsinlər. Ona görə də rus ekspertləri həyasızlıq sərgiləməsinlər və Suriyadakı "uğurları" barədə xatırlatmalar etməsinlər..."

### Büdcə yox, hərbi büdcə sıfır həddində və bir də artan vətəndaş qarşıdurması...

Göründüyü kimi, armenianreport bu məsələdə açıq-aşkar Paşinyanın tərəfində dayanır və onun ifadələrinin doğru olduğunu sübuta yetirməyə çalışır.

Fəqət, bununla yanaşı, Azərbaycanın hərbi təchizatının daha da təkmilləşdirilməsi yönündə yeniliklərə start verdiyini də xatırladan erməni agentliyi yazır ki, Azərbaycan artıq Türkiyə və İsrailin hərbi sənayesinin istehsal etdiyi ən müasir texnikaları alacağı barədə anons verib. "Bir də ki, Bakı Ermənistana qarşı ərazi iddiaları ilə çıxışlar edir. Bizə, sadəcə, silahlanmaq lazımdır. Rusiya xlamı ilə deyil, ən yaxşı silahlarla", deyə yazan armenianreport, hətta Afrika ölkələrinin də Rusiya silahlarından imtina etdiklərini qeyd edir.

Beləliklə, Paşinyanın Sarqsyanın ittihamlarının ardınca verdiyi məlum bəyanatı artıq belə bir nəticəni də hasil edir ki, Ermənistanın silah məsələsində dərindiyi dalan çıxılmazdır. Büdcə yox, hərbi büdcə sıfır həddində və bir də artan vətəndaş qarşıdurması - bütün bunlar isə ilk əvvəl, məhz Azərbaycanın xeyrinə işləyən saat əqrəbləridir...

*Rövşən RƏSULOV*

## FOTOFAKT:
## RİA Novosti-dən Azərbaycana qarşı təxribat!

Ermənistanın baş naziri Nikol Paşinyanın silahlı qüvvələrin baş qərargahının rəisi Onik Qasparyanın istefasını imzaladığı sənəd ölkə prezidenti Armen Sarkisyan tərəfindən imzalanmayıb. Müxalifət tərəfdarları prezidenti həmin sənədə imza atmamağa çağırırlar.




SİA xəbər verir ki, erməni siyasiləri arasında baş verən parçalanma artıq üç hissəyə ayrılıb. Paşinyan tərəfdarları, keçmiş hakimiyyət təmsilçiləri və ordu. Bununla bağlı Armeni-




an Military Portal teleqram kanalı hazırkı ölkə başçısı Nikol Paşinyanın, keçmiş prezidentlər - Levon Ter-Petrosyanın, Robert Koçaryanın və Serj Sarqsyanın fotolarının üzərindən çarpaz xətlər çəkərək iqtidarın orduya keçməsini tələb edib. Rusiyalı politoloq İqor Korotçenko bununla bağlı teleqram səhifəsində maraqlı fikir paylaşaraq bildirib ki, Ermənistanda Pinoçet rejimi qurulur.

Xatırladaq ki, Pinoçet Çilidə 70-ci illərdə hərbi çevriliş edərək hakimiyyəti ələ keçirən və hərbi diktatura yaradan generallardandır. Korotçenko da ermənilərin bir hissəsinin ordunun hakimiyyəti ələ keçirməsi tələbini irəli sürmələrinə görə belə bir fikir bildirib.

## Ehsan Zahidov:
## "Belə fikirlər əsassızdır"

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəisi, polis polkovniki Ehsan Zahidov bir neçə gün öncə "İctimai" televiziyada polisin fəaliyyətini tənqid edən materialla bağlı açıqlama verib. Xidmət rəisi açıqlamasında bildirib ki, ölkəmizdə fəaliyyət göstərən bütün televiziya kanalları, o cümlədən də "İctimai" televiziya həmişə daxili işlər orqanlarının fəaliyyətini geniş işıqlandırıb, polisin cinayətkarlığa qarşı həyata keçirdiyi uğurlu tədbirlərin tamaşaçılara çatdırılmasında böyük əmək sərf ediblər: "Ona görə də bütün mətbuat nümayəndələrinə, o cümlədən "İctimai" televiziyanın əməkdaşlarına daxili işlər orqanlarının şəxsi heyəti adından təşəkkürümüzü bildiririrk. O ki qaldı qeyd olunan materialın guya sifariş əsasında hazırlanmasına, birmənalı olaraq bildiririk ki, belə fikirlər əsassızdır. Bütün televiziya kanalları, o cümlədən "İctimai" televiziya ilə əməkdaşlığımız bu gün də daha yüksək səviyyədə davam edir.



# MEDİA mediada nəyi, niyə və necə dəyişməlidir?

**Məlum olduğu kimi bu ilin yanvarında Prezident İlham Əliyev Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında Fərman imzalayıb. Fərmanla “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi” (MEDİA) publik hüquqi şəxs yaradılıb. Çox sayda problemlərin müşahidə olunduğu, informasiya çirkliliyinin geniş yayıldığı bir məkanda MEDİA-nın fəaliyyəti nədən ibarət ola bilər və Azərbaycan mediasının inkişafına hansı töhfələr verə bilər? Media sahəsində hansı islahatlara ehtiyac var. Yazımızda bu məsələlərə toxunacağıq.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb*

## Mediamızın inkişafı üçün nə etmək lazımdır?

Bu suala cavab vermək üçün əvvəlcə media sahəsindəki mövcud vəziyyəti və həll olunması vacib problemləri nəzərdən keçirməliyik. Onlar aşağıdakılardır;

- Hazırda medianın vəziyyətinin ürəkaçan olmaması, illərlə hökm sürmüş fəaliyyət prinsiplərinin artıq özünü doğrultmadığı və media sahəsində islahatlara ehtiyac olması;
- Medianın fəaliyyətinin şəffaflaşdırılmasına, azad rəqabət mühiti və reklam bazarının inkişafı üçün addımlar atılmasına, mediada hökm sürən mənfi tendensiyanın aradan qaldırılmasına ehtiyac olması;
- Azərbaycan mediasının xaotik vəziyyətdən strateji inkişaf yoluna qədəm qoyması üçün bu sahədə düşünülmüş, dərin islahatların aparılmasının labüdlüyü;
- Müasir, qabaqcıl fəaliyyət prinsiplərinə söykənən, güclü, siyasiləşməmiş, “hər şeyi bir rəngdə görməyən”, peşəkar, qərəzsiz medianın formalaşmasın vacibliyi;
- Hazırda medianın fəaliyyətini tənzimləyən yeni qanun üzərində iş aparılması və bu qanunun qəbul olunmasına ehtiyac olması;
- Media subyektlərinin vahid uçot-qeydiyyat sisteminin olmamasının jurnalistlərin fəaliyyətində yaratdığı çətinliklərin həll edilməsi, həmçinin bir çox ölkələrdə tətbiq olunan jurnalistlər üçün vahid vəsiqələrin tətbiqi, belə vəsiqə əldə etmiş jurnalistlərin peşəkarlığını artırmaq və onların sosial müdafiəsinə yönəlmiş tədbirlərin həyata keçirilməsi. MEDİA bu məsələləri həll edə bilsə, Azərbaycanda sağlam media formalaşa bilər.

## İnternet medianın inkişafı nəyə səbəb olur?

İnternetin inkişafı media sistemini, formatını, peşə qayda və prinsiplərini tamam dəyişib. Elektron media sürətlə print medianı sıradan çıxarır. Azərbaycanda yazılı mətbuat yalnız dövlət dəstəyi ilə ayaqda qalır. Print media bəzi ənənəvi oxuma vərdişlərinə yiyələnmiş ölkələrdə müqavimət göstərə bilir, amma tezliklə onlar da sıradan çıxacaq. Bu prosesin səbəbləri aydındır. İnformasiya əsrinə, sürət əsrinə gəlib çıxdıq, qəzet və jurnallar bu sürətlə ayaqlaşa bilmir, onlar bir hadisə və ya porses haqda xəbəri verənə kimi 1 gün keçir və vəziyyət 3 dəfə dəyişir.

Bəs çıxış yolu nədədir? Fikrimizcə, qəzet və jurnallar daha çox sanballı təhlillər, maraqlı müsahibələr, dərin araşdırmalar, elmi məqalələr verməlidir ki, saytlardan fərqlənə bilsin. Amma bunun üçün böyük maddi texniki baza, peşəkar kadrlar lazımdır, onlar isə aşağı maaşa işləmirlər. Reklam bazarı yoxdur deyə qəzetlər mütəxəssislərə, peşəkar jurnalistlərə səviyyəli yazılar yazdıra bilmirlər, ucuz işçi qüvvəsi kimi daha çox gənc praktikantları işlətməyə üstünlük verirlər. Bu da nəticəsini göstərir. Üstəlik, qəzet və jurnal yeganə media növüdür ki, ona pul ödəmək lazımdır.



Təbii ki, hər gün 40-50 qəpik verib qəzet almağa çoxunun imkanı yoxdur, olanda da almır, çünki saytlarda pulsuz oxuyur.

İnternet medianın, sosial şəbəkələrdə media kimi fəaliyyət göstərən şəxslərin “xidmətləri” sayəsində təkcə medianın formatı deyil, peşəkarlığı, obyektivliyi və etikası da dəyişir. Bu da cəmiyyət üçün təhlükəli tendensiyadır. Hamının əlində kamerası olan smartfon ola bilər. Amma hamı jurnalist ola bilməz və olmamalıdır. Hər kəs öz işi ilə məşğul olmalıdır. Çünki beş-on oxucu sayı və müvafiq olaraq beş-on manat qazanmaq üçün əhalini aldatmaq, yalan, şantaj, təxribat xarakterli məlumatlar yaymaq həm cəmiyyət, həm də dövlət üçün təhlükəlidir.

İnternet mediada hər cür provakativ, reklam və təbliğat xarakterli məlumatlar, saxta və dezinformasiya materiallarını yaymaq asan olur. Bundan başqa, söyüş, təhqir, şantaj imkanları genişdir. Hətta ümummilli və dövlət əhəmiyyətli proseslərdə təxribatlar da törətmək mümkündür. Son dövrlərdə belə cəhdlərə çox şahid olmuşuq.

Doğrudur, internet mediasının və ya sosial medianın müsbət tərəfləri var. Hər bir faktı, hadisəni əhaliyə daha tez çatdırmaq olur, operativlik yüksəkdir, canlı yayım vermək, limitsiz foto və video əlavə etmək, bunu milyonlarla ünvana çatdırmaq, onlayn göndərmək, interaktivlik təmin etmək imkanı var.

## Media nəyə deyilir?

Beləliklə, internet media müsbət tərəfləri ilə yanaşı mənfi tərəfləri ilə də ortadadır. Bu məkanda, əksəriyyəti diletantlar, reketlər, dələduzlardan ibarət olaqla minlərlə şəxs sayt, sosial şəbəkə profili açaraq xəbər yayır.

Bir çox saytların da peşəkarlığı çox aşağı səviyyədə, maddi texniki baza zəif, əhatə dairəsi və müxbir postları şəbəkəsi yox, dünya informasiya məkanına çıxış gücü sıfır vəziyyətdə, heç bir etika, ədəb, mənəvi norma yox kimi. Təbii ki, azsaylı istisnalarla. Çoxu 1-2 nəfərdən ibarətdir, o da sayt adminləri. Üstəlik, bu adminlərin çoxu jurnalist deyil, nə ədəbi dil və rəsmi dil qaydarından, nə peşə etikasından, nə də yazı üslublarından və janrlardan xəbərləri var.

Belə saytlardan bəziləri yalançı və şişirdilmiş başlıqlarla xeyli oxucu cəlb edə bilir, yəni, hətta bəzi hallarda girişləri ciddi mediadan çoxdur. Lakin bu onların media olduğunu göstərmir. Mediada əsas meyar oxunma sayı deyil, tamam başqa prinsiplərdir. Ümumiyyətlə, saxta “şok” başlıqla 100 min nəfəri aldadıb sayta daxil olmasını təmin edən hər hansı bir saytda ciddi media orqanını müqayisə etmək belə olmaz, baxmayaraq ki, oxucu sayında 10 dəfə fərq var. Bunları sadəcə sayt adlandırmaq və mediaya heç bir aidiyyatının olmadığını bimək vacibdir. Giriş sayına qalsa, elə xidmət və ya satış saytları var ki milyonlarla girişi var, amma bunlar media deyil.

Bəzi ciddi xəbər portallarında da vəziyyət qənaətbəxş deyil. Yaydıqlarının 90 faizi hazır rəsmi məlumatlar, əməkdaşların telefonla kimisə danışdırdığı, tədbirlərdən göndərdiyi “o dedi, bu dedi” qəbilindən “eksklüziv” xəbərlərdir. Yaradıcılıq, xəbər axtarışı, problemi tapıb ortaya qoymaq, reportaj hazırlamaq, analiz etmək və araşdırmaq payı çox azdır.

## “Reket” mətbuatla nə etməli?

Medianın əsas problemlərindən biri də, bəzi işbazların qəzet, sayt açaraq rüşvət yığmaqla məşğul olmasıdır. Uzun illərdir mətbuatda belə əməllər var və azalmaq əvəzinə də artır. Bəzi qeydiyyatdan keçmiş, lakin çap edilməyən, ya da ildə 1-2 dəfə 100 tirajla çap edilən “reket” “qəzet”lərin “baş redaktor”ları saga-sola vəsiqə paylamaqla məşğuldur.

Bəzi məlumatlara görə, Azərbaycanda 50 min nəfərdən artıq vətəndaş cibində jurnalist vəsiqəsi gəzdirir, real jurnalistika ilə məşğul olanların sayı isə heç 5 min nəfər də deyil. Bunların sayəsində jurnalist imici artıq tamam fərqli şəkildə formalaşır və cəmiyyətdə bu rəyi dəyişmək getdikcə daha da çətinləşir.

Əvvəllər bunu qəzetlər vasitəsilə edirdilər, son illərdə internet mediaya girişiblər, çünki burada daha böyük imkanlar var. Elektron medianın inkişafı özünün müsbət tərəfləri ilə yanaşı mənfi tərəflərini də mətbuata sirayət etdirdi. İnternet mediada hər hansı materialın qısa müddətdə yayılması üçün hər cür imkanlar var. Əksəriyyəti diletantlar, reketlər, dələduzlardan ibarət olmaqla xeyli şəxs bir neçə yüz manat xərc qoyaraq sayt açıb ağzına gələni yazmağa başlayır.

Bu sektoru nə tənzimləmək mümkün olur, nə nəzarət etmək, nə dəyişdirmək, nə də kənardan təsir etmək. Aidiyyatı dövlət orqanları və jurnlaist təşkilatları buna qarşı effektiv mübarizə apara bilmirlər. Qara siyahı hazırlamaq və qınamaq kimi bəzi tədbirləri nəzərə almasaq. Lakin bunlar heç bir effekt vermir, çünki problem fundamental və kompleksdir.

Bu “reket” adlandırılan şantajçı saytlar, qəzetlər ciddi cəzalandırılmalıdır. Bunlar həqiqi jurnalistikanı da gözdən salır. Çünki açıq şantajla məşğul olur, insanları ləkələyir, rüşvət alır və hər cür hoqqalardan çıxır. Adı da olur mətbuat azadlığıdır.

Azadlıq anarxiya demək deyil. Dövlət vətəndaşların şərəf və ləyaqətini qorumağa borcludur. Belə saytların bir çoxu milli və dövlət təhlükəsizliyinə də təhlükə yaradırlar. Cəbhədə döyüşlər başlayanda şahidi olduq, dezinformasiyalar baş alıb gedir, əhalidə qorxu yaradılır, düşmən mənafeyinə uyğun materiallar yayımlanır. Yaxud da, hansısa şirkətin, məhsulun reklamı üçün aldadıcı məlumatlar yayılır. Gənclərə əxlazsızlıq təbliğ edilir. Yəni, çox sayda problem yaradırlar. KİV əhaliyə çox ciddi təsir imkanlarına malik güclü silahdır, ictimai rəyi formalaşdıran institutdur, burada anarxiyaya yol vermək olmaz.

## İnformasiya təhlükəsizliyi milli təhlükəsizliyin elementidir

Göründüyü kimi, problemlər fundamental və kompleksdir. Bu, birbaşa dövlət-cəmiyyət- media üçbücağındakı qarşılıqlı vəziyyətlə analoji müstəvidə inkişaf edən bir sistemdir. Medianın dəyişməsi üçün bu ücbucağın bütün tərəfləri dəyişməlidir. Dövlət media siyasətini, cəmiyyət isə özünü dəyişməlidir. Nəticədə media da dəyişəcək.

Dövlət ciddi və peşəkar mediaya dəstək verməlidir ki, həm cəmiyyətin rəğbətini qazansın, həm də beynəlxalq məkana çıxış imkanları yaransın. Onlara hər sahədə problemləri, nöqsanları aşkarlayaraq tənqid etməsini, rüşvətxor məmurun, dövlətə zərər vuran vəzifəli şəxslərin ifşasını təmin etməlidir, özü də bunun əsasında müvafiq tədbir görməlidir.

Cəmiyyət isə +18 və şou mövzuların başını buraxıb ciddi siyasi, iqtisadi, mədəni, elmi mövzularda materialları oxumalıdır. İş adamları, şirkətlər peşəkar mediaya reklam verməlidir. Televiziyalar peşəkar qəzetləri təşviq etməli, onların xülasəsini verməlidir.

Bundan sonra medianın İP qazanmaq naminə cəmiyyətə zərərli, mənəvi dəyərlərə zidd materiallar verməsinə ehtiyac qalmayacaq. Satışdan, abunədən, reklamdan normal gəlir əldə edəcəklər. Sağlam rəqabət mühiti yaranacaq. Nəticədə peşəkar, savadlı şəxslər işə cəlb ediləcək, medianın nüfuzu artacaq. Cəmiyyət görəndə ki, media həqiqətən 4-cü hakimiyyətdir, ona dəstək verəcək. Media da dövlət və cəmiyyət arasında öz funksiyasını daha layiqli yerinə yetirəcək. Cəmiyyətimizin və dövlətimizin maraq və mənafelərinin təmin olunmasına öz töhfəsini verəcəkdir. Son nəticədə həm dövlətimiz, həm cəmiyyətimiz qazanacaq.

Göründüyü kimi, belə bir şəraitdə MEDİA-nın yaradılmasının və onun həyata keçirəcəyi islahatların çox böyük əhəmiyyəti var. Dövlətin dünya təcrübəsi ilə milli ənənələri uzlaşdıraraq hər 3 tərəfi (cəmiyyət, dövlət və media) qane edəcək optimal tənzimlənmə mexanizmi yaratma cəhdi təqdirəlayiqdir. Cəmiyyətdə isə nəhayət ictimai qınaq mexanizmi formalaşmalıdır.

Çünki, məsuliyyət tələb edilmədikdə cəza mexanizmi, ictimai qınaq olmadıqda isə ortada ciddi mətbuat olmur. Bu ikisinin arasında 3-cü yolun formalaşması lazımdır. MEDİA məhz bu məqsədlər üçün lazımdır və medaimızın inkişafını təmin etmək üçün lazım olan bütün addımları atmalıdır.

***Elçin Bayramlı***

ANALİZ

SƏS
QARABAĞ AZƏRBAYCANDIR!
Qəzet 1991-ci il yanvarın 11-dən çıxır
26 fevral

## “FourFourTwo”: Sorğuda Ronaldo Peleni üstələyib



**Britaniyanın “FourFourTwo” jurnalı azarkeşlər arasında növbəti dəfə sorğu keçirib. Bu dəfə məqsəd “Braziliya futbol tarixinin ən yaxşı futbolçusu kimdir” sualına cavab tapmaq olub. Sorğu “Twitter”də təşkil olunub.**

Siyahıya 32 futbolçunun adı daxil edib. Onluqda Qarriçna, Romario, Kafu, Kaka, Sokrates, Roberto Karlos, Ronaldinyo, Rivaldo, Ronaldo və Pele yer alıblar. Səsvermənin yekununa əsasən Pele ilə Ronaldo finala yüksəliblər. Həlledici mərhələdə isə Ronaldo 59,9 faizlə Braziliya futbolunun əfsanəsi Peleni üstələyib.

## UEFA: “Avro-2020” mütləq təşkil olunacaq




Futbol üzrə “Avro-2020” mütləq təşkil olunacaq. Bunu UEFA-nın tibbi məsləhətçisi Daniel Kox deyib. Onun sözlərinə görə qitə çempionatı ilə bağlı pis variant nəzərdən keçirilmir, əksinə, hazırda realist və nikbin ssenari var. Qurumun rəsmisi azarkeşlərin oyunlarını izləmək üçün digər ölkələrə səyahət edə biləcəklərini vurğulayıb.

Qeyd edək ki, 2020-ci ildə keçirilməli olan Avropa çempionatı koronavirus pandemiyası səbəbindən bu il iyunun 11-dən iyulun 11-dək təxirə salınıb. Yarışa Bakı, Sankt-Peterburq, London, Münhen, Roma, Buxarest, Dublin, Kopenhagen, Bilbao, Qlazqo, Budapeşt və Amsterdam şəhərləri ev sahibliyi edəcək. Bakı Olimpiya Stadionunda “A” qrupunun İsveçrə-Uels, Türkiyə-Uels və Türkiyə - İsveçrə qarşılaşmaları, eləcə də dörddəbir finalın 1 oyunu keçiriləcək.

## Ötən il Azərbaycanda 126 min 571 körpə doğulub

Ötən il Azərbaycanda 126 min 571 körpə doğulub. Əhalinin hər 1000 nəfərinə həmin göstərici 12,7 təşkil edib. Dövlət Statistika Komitəsindən bildiriblər ki, körpələrdən 3300-ü əkiz, 123-ü üçəm, 4-ü isə dördəm doğulanlardır. Əhalinin hər 1000 nəfərinə doğum səviyyəsi Dağlıq Şirvan (15,4), Quba-Xaçmaz (14,5), Kəlbəcər-Laçın (14,4), Lənkəran (14,1), Aran (14,0), Yuxarı Qarabağ (13,2) və Şəki-Zaqatala (13,0) iqtisadi rayonlarında ölkə göstəricisindən yüksək olub.



Bununla yanaşı, ötən il ölkədə 75 min 647 ölüm halı qeydə alınıb və əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 7,6 təşkil edib. Ölənlərin 2006 nəfəri (2,7 faizi) 0-17 yaşda, 9510 nəfəri (12,6 faizi) 18-49 yaşda, 20 min 653 nəfəri (27,3 faizi) 50-64 yaşda, 43 min 478 nəfəri (57,4 faizi) isə 65 və yuxarı yaşda olub.

## Həkim-terapevt: Gün ərzində 12-33 qram lifli qidanın qəbul edilməsi məsləhətdir



Sağlamlıq əslində sağlam və qatqıların olmadığı qidalardan başlayır. Sağlam qidalanmanın əsasını təşkil edən komponentlərdən biri lifli qidalardır. Aparılan tədqiqatlara əsasən gün ərzində hər kəsə 12-33 qram arasında lifli qida qəbul etmək məsləhət görülür. Lifli məhsullarla qidalanma qan təzyiqini normaya salır, xolesterol səviyyəsini tənzimləyir, həmçinin mədə-bağırsaq sisteminin sağlamlığına müsbət təsir göstərir. Meyvə-tərəvəz və paxlalı bitkilərdə olan bəzi lif növləri orqanizmdə kalsium kimi əhəmiyyətli mineralların sorulmasına kömək edir.

AZƏRTAC xəbər verir ki, Bakıdakı 20 nömrəli poliklinikanın həkim-terapevti Solmaz Musayeva deyib: “Lifli qidalar əsasən avokado, əncir və paxlalı bitkilərin tərkibində daha çox olur. Artıq çəkidən azad olmağa, hormonal sistemin tənzimlənməsinə kömək edir. Yaşından, cinsindən asılı olmayaraq hər kəsin lifli qidalar qəbul etməsi gün ərzində metabolizmi sürətləndirir. Lifli qidaların bir faydası da insanı tox tutmasıdır. Onun sayəsində həm də düzgün qaydada artıq kilolardan xilas olmaq mümkündür. Qəbul edilən hər 1000 kalori üçün 14 qram lif tövsiyə olunur. Bu, yetkin qadınlarda 25, kişilərdə isə 38 qram lif deməkdir. Həmin qidalar maddələr mübadiləsini sürətləndirir, eyni zamanda, ürək xəstəliklərinin inkişafının qarşısını alır”.

Mütəxəssislər gündəlik qida rasionunda lifli qidalara yer ayırmağın vacibliyini qeyd edirlər. Hesab edilir ki, bu növ məhsullara üstünlük vermək daha sağlam həyat tərzi sürməyə səbəb olur.

## İmişlidə ev yanıb



**İmişli rayonunun Qaraqaşlı kəndində ümumi sahəsi 210 kvadratmetr olan birmərtəbəli evin kərpic, qamış və taxta materiallardan ibarət konstruksiyaları və içərisindəki əşyaları 140 kvadratmetr sahədə yanıb.**

**Fövqəladə Hallar Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, evin qalan hissəsi yanğından mühafizə olunub. Alov yanğından mühafizə bölmələri tərəfindən söndürülüb.**

## Dünyanın ən etibarlı avtomobilləri açıqlandı

Dünyanın ən etibarlı avtomobillərin markaları açıqlanıb. Bu barədə araşdırmanı “J.D. Power” şirkəti aparıb. Analitiklər 2018-ci il istehsalı olan 33 251 avtomobilin sahibi arasında sorğu aparıb. Sorğuda daha çox son 12 ay istifadə zamanı rast gəlinən problemlər əsas götürülüb və səkkiz qruplar üzrə 177 konkret nasazlıqlar əhatə olunub.

Sorğuya əsasən, “Lexus” ən etibarlı avtomobil hesab edilib. İkinci pillədə “Porsche”, üçüncü pillədə isə “Kia” avtomobilləri qərarlaşıb. Araşdırmanın müəllifləri bildirir ki, Cənubi Koreya istehsalçısı daha məşhur brendlər arasından bu pilləyə qalxmaqla ən yüksək yer əldə etmiş olub. Araşdırmaya əsasən, ən etibarlı model “Porsche 911” seçilib.



## Başsağlığı

”SƏS” Media Qrupunun baş direktoru Bəhruz Quliyev və kollektivi ”Bakı-xəbər” qəzetinin baş redaktoru Aydın Quliyevə əzizi

**Zeynəb xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə baş sağlığı verir.

***ALLAH RƏHMƏT ELƏSİN!***

***Baş redaktor:***

**Bəhruz Quliyev**

***Baş redaktorun müavinləri:***

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
***“Azərbaycan” nəşriyyatında çap olunur***
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**